## Şuşada yaşayanlara tibbi xidmətlərin göstərilməsi qaydası açıqlanıb




**"Şuşada yaşayanlar üçün tibbi xidmətlərin göstərilməsində heç bir problem yoxdur".**

Bunu Nərimanov Tibb Mərkəzinin direktoru Fazil Alməmmədov deyib.

O qeyd edib ki, Qala şəhərdə yaşayanların tibbi göndərişləri aidiyyəti qaydada həyata keçirilir.

Mərkəz direktorunun sözlərinə görə, Şuşada yaşayanlar üçün modul tipli xəstəxanada həkimlər bütün lazımi tibbi xidmətləri göstərir: "Vətəndaşlara ixtisaslaşmış həkim müayinəsi lazım olanda göndəriş Füzuli Rayon Mərkəzi Xəstəxanasına verilir. Lazım gələrsə Bakı şəhərindəki xəstəxanalara da tibbi göndəriş yazıla bilər".



## Şəkidə bir qəsəbədən 58 nəfər xəstəxanalıq oldu

**Şəkinin Yeni Çələbixan qəsəbəsində bir gündə xəstəxanaya müraciət edən 50-dən çox şəxsə ilkin yardım göstərilib və evə buraxılıb.**

Trend xəbər verir ki, 58 nəfər qusma, qızdırma və ishal əlamətləri ilə xəstəxanaya gətirilib. Onlardan 41 nəfərin uşaq olduğu bildirilir.

Müraciət edən şəxslərə mənşəyi infeksion hesab edilən qastroenterit diaqnozu qoyulub.


❒ № 125 (5647), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 20 iyul 2022-ci il (çərşənbə)




## ÜST yeni koronavirus dalğasını elan edib

### "Ötən ilin yayı ilə analoji vəziyyətdəyik"

**Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) koronavirusun yeni dalğasını elan edib.**

"Report" xarici KİV-ə istinadən xəbər verir ki, bu barədə ÜST-ün saytında bildirilir.

ÜST-ün Avropa Bürosunun rəhbəri Hans Klüge koronavirusun "Omikron" ştamının subvariantlarının yayıldığı barədə məlumat verib.

"Ötən ilin yayı ilə analoji vəziyyətdəyik. COVID-19 dalğası "Omikron" ştamının subvariantları, xüsusilə də BA.2 və BA.5-dən qaynaqlanır", - məlumatda qeyd edilir.

Klüge, həmçinin əlavə edib ki, son altı həftə ərzində Avropada yeni yoluxmaların sayı üç dəfə artıb. ÜST rəsmisi Avropa ölkələrini vaksinasiya və tibbi maska taxılması ilə bağlı təcili tədbirlər görməyə çağırıb.



## Ərdoğan Zəngilan Hava Limanının açılışında iştirak edəcək

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Zəngilan Beynəlxalq Hava Limanının açılışında iştirak edəcək.**

Bu barədə Prezident İlham Əliyev Türkiyə Respublikasının ailə və sosial xidmətlər naziri Derya Yanıkı qəbul edərkən deyib.

Dövlət başçısı Türkiyə Prezidenti ilə Zəngilan hava limanının açılışında iştirak edəcəklərini məmnunluqla qeyd edib.

*Qeyd edək ki, Zəngilan Beynəlxalq Hava Limanının tikintisi bu ilin sentyabr ayında başa çatacaq.*

# Qarabağdan erməni silahlılar çıxarılır

### Ermənistan Təhlükəsizlik Şurasının katibi deyib ki, geri çəkilmə prosesi sentyabrda tam yekunlaşacaq



**Azərbaycanın Qarabağ bölgəsində qanunsuz olaraq fəaliyyət göstərən erməni silahlı qüvvələrinin bölmələri Ermənistana qaytarılır.**

Bu barədə Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan bildirib. O deyib ki, 44 günlük müharibə zamanı Ermənistan silahlı qüvvələrinin bir sıra bölmələri Qarabağa göndərilib:

"Atəşkəs rejiminin yaradılmasından və Rusiya Federasiyasının sülhməramlı kontingentinin yeridilməsindən sonra Ermənistan silahlı qüvvələrinin bölmələrinin çıxarılması tamamilə təbiidir.

(səh.3)

## Ceyhun Bayramov Baş katibi məlumatlandırdı

### "Kütləvi basdırılmış minalar məcburi köçkünlərin geri qayıtmasına maneə yaradır"



**Dünən Brüssel şəhərinə işgüzar səfəri çərçivəsində xarici işlər naziri cənab Ceyhun Bayramov NATO Baş katibi Yens Stoltenberq ilə NATO-nun mənzil-qərargahında görüş keçirib.**

Bu barədə Xarici İşlər Nazirliyindən məlumat verilib.

Görüşdə NATO-Azərbaycan tərəfdaşlığının hazırkı vəziyyəti və gələcək perspektivləri, eləcə də regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Xarici işlər naziri Ceyhun Bayramov Azərbaycan-NATO tərəfdaşlığı çərçivəsində əldə edilmiş nəticələrdən məmnunluq ifadə edib. Ölkəmizin beynəlxalq sülh və təhlükəsizliyə töhfələri kontekstində NATO əməliyyatlarında iştirakı məsələsinə toxunub.

(səh.2)

# Qarabağa qayıdış başladı

### Artıq Zəngilan sakinlərinin bir qrupu öz yurdlarına, Ağalı kəndinə döndülər



**19 iyul 2022-ci il Azərbaycan tarixində önəmli günlərdən biri kimi qalacaq. Çünki işğaldan azad edilmiş torpaqlarımıza Böyük Qayıdış prosesinə məhz həmin gündə start verildi.**

Otuz ilə yaxın doğma yurdlarına qovuşmaq həsrəti ilə yaşayan məcburi köçkünlərimiz sevinc göz yaşları, eyni zamanda qürurlu hisslərlə öz yurdlarına geri döndülər.

Tarixi köç Zəngilan rayonunun Ağalı kəndinə 10 ailənin köçürülməsi ilə başlandı. On ailənin üzvləri Daxili İşlər Nazirliyinin əməkdaşlarının müşayiəti ilə öz doğma yurd-yuvalarına yola salındı. Ağalı sakinlərini yolasalma tədbirindən sonra jurnalistlərin suallarını cavablandıran Prezidentin Zəngilan rayonunda xüsusi nümayəndəsi Vahid Hacıyev bütün köç prosesinin dövlətimizin başçısının birbaşa nəzarəti altında olduğunu bildirdi.

(səh.4)



## Ukraynanın birinci xanımı bu gün ABŞ Konqresində çıxış edəcək

**Ukrayna Prezidenti Volodimir Zelenskinin həyat yoldaşı, ölkənin birinci xanımı Yelena Zelenskaya ABŞ-da səfərdədir.**

"Report" xəbər verir ki, bu barədə ABŞ Dövlə Departamentinin mətbuat xidməti məlumat yayıb.

Bildirilib ki, Yelena Zelenskaya iyulun 20-də ABŞ konrqesində çıxış edəcək.

Məlumata görə, səfər çərçivəsində o, ABŞ-ın dövlət katibi Entoni Blinken və Beynəlxalq İnkişaf Agentliyinin başçısı Samanta Pauerlə görüşüb.

## 4 nəfər vəfat edib

### 257 yeni yoluxma faktı qeydə alınıb




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 257 yeni yoluxma faktı qeydə alınıb, 58 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən 4 nəfəri vəfat edib.

Azərbaycanda indiyədək ümumilikdə 794 913 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 784 090 nəfər müalicə olunaraq sağalıb, 9 727 nəfər vəfat edib, aktiv xəstə sayı 1 096 nəfərdir.

*Ölkədə son sutka ərzində 3 658, hazırkı dövrədək isə 7 008 073 test aparılıb.*

## Fatmayıda dənizdə bir nəfər batıb



**Fövqəladə Hallar Nazirliyinin (FHN) "112" qaynar telefon xəttinə Abşeron rayonunun Fatmayı kəndində, dənizdə (ən yaxın sularda xilasetmə məntəqəsindən təqribən 2 km aralı, nəzarətsiz ərazi) 1 nəfərin batması barədə məlumat daxil olub.**

"Şərq" bu barədə FHN-ə istinadən xəbər verir.

Hadisə yerinə cəlb olunan FHN-nin Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin dalğıc-axtarış qrupu tərəfindən batan şəxsin (şəxsiyyəti dəqiqləşdirilir) meyiti sudan çıxarılıb və aidiyyəti üzrə təhvil verilib.



## Dünya iqtisadi böhranın qarşısını ala bilmir

Yaxın zamanda dünya ölkələrində kardinal şəkildə siyasi idarəetmə elitası dəyişəcək

(səh.2)

## Abituriyentlərin peşə seçiminə azadlıq verilməlidir

Kamran Əsədov: "Gələcəyin ehtiyac duyulası ixtisaslarından biri də Nanotexnologiyadır"



(səh.6)



# "Avropanı Azərbaycandan təcrid etmək mümkün deyil"

## Prezident İlham Əliyev: “Biz Avropa ilə yaxın münasibətlər qurmaq istəyirik və əməkdaşlığın nəzərəçarpan əlamətləri bunu nümayiş etdirir”

**”Avropanı Azərbaycandan və Azərbaycanı Avropadan təcrid etməyin mümkün olmadığını bilməlidirlər”. Bunu Prezident İlham Əliyev iyulun 19-da Avropa Parlamentinin Xarici Əlaqələr Komitəsinin sədri Devid Mak Alisterin başçılıq etdiyi nümayəndə heyətini qəbul edərkən deyib. Dövlət başçısı təəssüflə bəyan edib ki, bir çox Avropa parlamentariləri heç bir əsas olmadan bizi hücuma məruz qoyublar:**

”Beləliklə, vəziyyət belədir. Biz real dünyada yaşayırıq, bu, bizim seçimimiz deyil. Siz mənim mövqeyimi bilirsiniz. Mənim mövqeyim 2017-ci ildə sonuncu görüşümüzdən bəri dəyişməyib. Biz Avropa ilə yaxın münasibətlər qurmaq istəyirik və bizim bütün etdiklərimiz, o cümlədən indicə qeyd etdiyim əməkdaşlığın nəzərəçarpan əlamətləri bunu nümayiş etdirir. Lakin Avropa Parlamenti belə bir yol seçməyi düşünürsə, bu, onların seçimidir. Amma onlar parlamentin bəzi üzvlərinin cəhdlərinə baxmayaraq, Avropanı Azərbaycandan və Azərbaycanı Avropadan təcrid etməyin mümkün olmadığını bilməlidirlər”. Dövlət başçısı Ermənistanın 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanat çərçivəsində üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmədiyini qonaqların diqqətinə çatdırıb. Prezident İlham Əliyev Avropa İttifaqı Komissiyasının prezidenti Ursula von der Leyenin Azərbaycana səfərinin nəticələrini müsbət qiymətləndirib.

**“Avropa Parlamenti Azərbaycana qarşı daha çox aqressivdir”**

**Dövlət başçısı bildirib ki, Avropa Parlamenti Azərbaycana qarşı daha çox aqressivdir:** ”Eyni zamanda, Avropa İttifaqı Şurasının prezidenti cənab Şarl Mişel Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesinə fəal şəkildə cəlb olunub. O, artıq Ermənistan və Azərbaycan rəhbərlərinin və özünün iştirakı ilə üç üçtərəfli görüşə ev sahibliyi edib. Beləliklə, bu, çox müsbət kontekstdir. Lakin bunu nəzərə alaraq, biz Avropa Parlamentinin hərəkətlərini başa düşə bilmirik. Əslində, Avropa Parlamenti Ermənistan parlamenti ilə müqayisədə Azərbaycana qarşı daha çox aqressivdir. Bəzən elə olur ki, bu qətnamələri Ermənistan parlamenti qəbul edir və ya ola bilsin, bəzi erməni lobbi qruplarının onların üzərində müəyyən təsiri var. Əks halda, bunu başa düşmək çox çətindir. Təəccübləndiyimi deyəndə mən məhz bunu nəzərdə tuturdum”.

**“Avropa Parlamentinin birtərəfli qətnaməsinin qəbul edilməsi tamamilə qəbulolunmazdır”**

**Prezident vurğulayıb ki, Avropa Parlamentinin birtərəfli qətnaməsinin qəbul edilməsi tamamilə qəbulolunmazdır:** ”Müharibə bitəndən sonra səfirliklərin nümayəndələri, siyasətçilər, Avropanın bəzi ölkələrinin parlament sədrləri, jurnalistlər tərəfindən çoxsaylı səfərlər olub. Onların hamısı Azərbaycanın mədəni irsinin tamamilə məhv edilməsinin şahidi olublar. Onlar hər hansı erməni mədəni irsinin dağıdılmasını görmədilər. Əksinə, erməni mədəni irsi həm Bakıda, həm də Qarabağda mühafizə olunur. Bununla belə, işğal zamanı 67 məsciddən 65-i Ermənistan tərəfindən dağıdılıb. Bu barədə heç bir söz belə deyilmir. Onlar məscidlərimizdə donuz və inək saxlayırdılar, şəhərlərimizi və kəndlərimizi yerlə-yeksan ediblər. Hazırda biz səfərlər təşkil edirik və Azərbaycanın hər bir vətəndaşı Şuşanı, Füzulini və Ağdamı ziyarət edə bilər. Hər kəs erməni vandalizminin, barbarlığının miqyasını görə bilər. Belə şəraitdə Azərbaycanı heç vaxt etmədiyimiz məsələlərdə ittiham edən Ermənistanın və ermənilərin ərazilərimizdə törətdiyinə göz yuman birtərəfli qətnamənin qəbul edilməsi tamamilə qəbulolunmazdır. Əfsuslar olsun, bu, baş verdi. Bilirəm ki, nümayəndə heyətinizin bir çox üzvləri həmin qətnamənin lehinə səs veriblər. Bu isə tamamilə əks-nəticə verən addımdır. Birincisi, bu, yalandır və uydurulmuş faktlara, böhtan və iftiralara əsaslanır. İkincisi, bu, o qədər böyük əhəmiyyət kəsb etmir. Çünki siz yəqin bilirsiniz ki, Avropa İttifaqı ilə Azərbaycan arasında münasibətlərin yaxşı tarixi var və xüsusilə hazırda əlaqələr çox uğurla inkişaf edir”.

**“Bizə qarşı ittihamlar, təhqirlər səsləndirildi və yalan məlumatlar yayıldı”**

**Ölkə rəhbəri deyib ki, Avropa Parlamentinin bəzi üzvlərinin mövqeyi tamamilə əsassızdır:** ”Çox vaxt keçib. Uzun müddət idi ki, Avropa Parlamentindən nümayəndə heyəti gəlmirdi. Yadımdadır, sonuncu nümayəndə heyəti 2018-ci ildə gəlmişdi. Səmimi desək, mən Azərbaycana səfərinizi planlaşdırdığınızı eşidəndə hətta bir az təəccübləndim. Ola bilsin, səbəb sizə məlumdur. Əməkdaşlığın inkişafı ilə bağlı geniş şəkildə müzakirə etdiyimiz görüş yadımdadır. Lakin əfsuslar olsun ki, bu, baş tutmadı. Səbəb bizimlə yox, Avropa Parlamentinin bəzi üzvlərinin mövqeyi ilə bağlı idi. Biz həmin mövqeni tamamilə əsassız hesab edirik. Bizə qarşı ittihamlar, təhqirlər səsləndirildi və yalan məlumatlar yayıldı. Mən hətta Avropa Parlamentinin müxtəlif vaxtlarda qəbul etdiyi antiazərbaycan qətnamələrin sayını da yaddan çıxarmışam. Ola bilsin, 10-dan artıq qətnamədən söhbət gedir. Xüsusən də Vətən müharibəsindən sonra bir qətnamə qəbul edilib. Bu, ayrıca narahatlıq doğurur, çünki həmin qətnamədə Qarabağda erməni mədəni irsinin dağıdılmasına istinad edilir. Bu isə həqiqətə uyğun deyil. Həmin qətnamə bu ilin mart ayında qəbul olunub. Yəni müharibə bitəndən il yarım sonrakı vaxta təsadüf edir”.

**İsmayıl**

# Ceyhun Bayramov Baş katibi məlumatlandırdı

## “Kütləvi basdırılmış minalar məcburi köçkünlərin geri qayıtmasına maneə yaradır”



**Dünən Brüssel şəhərinə işgüzar səfəri çərçivəsində xarici işlər naziri cənab Ceyhun Bayramov NATO Baş katibi Yens Stoltenberq ilə NATO-nun mənzil-qərargahında görüş keçirib.**

Bu barədə Xarici İşlər Nazirliyindən məlumat verilib.

Görüşdə NATO-Azərbaycan tərəfdaşlığının hazırkı vəziyyəti və gələcək perspektivləri, eləcə də regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Xarici işlər naziri Ceyhun Bayramov Azərbaycan-NATO tərəfdaşlığı çərçivəsində əldə edilmiş nəticələrdən məmnunluq ifadə edib. Ölkəmizin beynəlxalq sülh və təhlükəsizliyə töhfələri kontekstində NATO əməliyyatlarında iştirakı məsələsinə toxunub.

Nazir, Ermənistanın işğalından azad edilmiş ərazilərimizdə Azərbaycan hökuməti tərəfindən həyata keçirilən bərpa və quruculuq işləri barədə Alyans rəsmisinə məlumat verib. Bu kontekstdə azad edilmiş ərazilərdə kütləvi şəkildə basdırılmış minaların bərpa-quruculuq işlərinə və məcburi köçkünlərin geri qayıtmasına maneə yaratdığı vurğulanıb. Eyni zamanda, post-münaqişə mərhələsində Azərbaycan və Ermənistan arasında münasibətlərinin normallaşdırılması prosesi çərşivəsində müxtəlif istiqamətlər üzrə Azərbaycan tərəfindən atılan addımlar qeyd edilib və bununla əlaqədar fikir mübadiləsi aparılıb.

NATO Baş katibi Yens Stoltenberq ölkəmizin etibarlı tərəfdaş olduğunu qeyd edərək, Azərbaycanın müdafiə islahatları və NATO missiyalarına töhfələrini yüksək qiymətləndirib. Baş katib, həmçinin Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində oynadığı rolu məmnunluqla vurğulayıb.

# ABŞ Dövlət Departamenti Azərbaycan və Ermənistan XİN başçılarının Tbilisi görüşünü alqışlayır




**ABŞ Cənubi Qafqazda münasibətlərin normallaşması istiqamətində fəal rol oynayır.**

APA xəbər verir ki, bunu ABŞ Dövlət Departamentinin sözçüsü Ned Prays deyib.

Dövlət Departamentinin sözçüsü qeyd edib ki, ABŞ ardıcıl olaraq ikitərəfli və eyni mövqeli tərəfdaşlarla birgə, o cümlədən ATƏT-in Minsk qrupunun həmsədri kimi tərəflərə uzunmüddətli, hərtərəfli sülhün əldə edilməsində köməklik göstərməyə hazır olduğunu bəyan edib.

”Dövlət katibi Blinkenin son həftələrdə xarici işlər nazirləri ilə təmas saxlamaq imkanı olub və həmçinin Dövlət katibinin köməkçisi Donfrid və Dövlət Departamentinin digər rəsmiləri də erməni və azərbaycanlı həmkarları ilə yüksək səviyyədə ünsiyyət qurmaq imkanı əldə ediblər.

Biz XİN başçıları arasındakı görüşü alqışlayırıq. Biz dialoqun Cənubi Qafqaz regionunda dinc, demokratik və firavan gələcəyə nail olmaq üçün ən yaxşı vasitə olduğuna inanmağa davam edirik və bunu bacardığımız qədər dəstəkləməyə davam edəcəyik”, - Ned Prays vurğulayıb.

# Dünya iqtisadi böhranın qarşısını ala bilmir

## Yaxın zamanda dünya ölkələrində kardinal şəkildə siyasi idarəetmə elitası dəyişəcək



**”Dünya iqtisadiyyatı növbəti ciddi böhranla, resessiya ilə üzləşib, hətta artıq böhranın içindədir”. Bu barədə iqtisadçı Natiq Cəfərli deyib. Ekspert bildirib ki, dünyada getdicə artan inflyasiya, enerji və ərzaq böhranı, logistik zəncirlərin qırılması, yenilərinin yaranması ilə bağlı problemlər 2020-ci ildə koronavirus bəlasının dünya ölkələri tərəfindən doğru idarə edilməməsinin nəticəsidir:**

”Likvidliyin kəskin artırılması, bazarlara 17 trilyon dollar əlavə vəsaitin axıdılması, qapalı sərhədlər, ən sonda Rusiyanın Ukraynaya qarşı təzavüzü dünya iqtisadiyyatını dizüstə qoyub. Dünya dilemma ilə qarşı-qarşıya qalıb. Ya kredit faizlərini artıraraq inflyasiya ilə mübarizə aparmaq, ya da likvidlik bolluğunu davam etdirərək inflyasiyanı daha da yüksəltmək. Görünən odur ki, dünya ölkələri birinci yolu tutublar. Əksər MB-lər uçot dərəcəsini artırmaq yolu tutub və bu yol inflyasiyanı cilovlaya bilər. Amma iqtisadi aktivliyi boğacaq, iş yerlərini, insanların real gəlirlərini kəskin azaldacaq. Yenə ölkələrdə sosial gərginliklərə, kütləvi etirazlara, nəticədə siyasi elitaların dəyişməsinə yol açacaq. Qəribəsi budur ki, hətta ikinci yol tutsalar belə, yenə nəticə eyni olacaq. Likvidliyin artması davam etdikcə inflyasiya yüksələcək. Qiymət artımları kütləvi etirazlara, seçkilərdə anti-elita qüvvələrə səs verməklə dəyişikliklərə səbəb olacaq. Yəni kovid səhvləri, hətta cinayətləri artıq dünya ölkələri elitasının boğazına keçmiş ipdir. Hansı tərəfə fırlansalar, ip daralır, siyasi ”boğulma” çırpıntıları artır”.

*N.Cəfərli qeyd edib ki, iyulun 21-də Avropa Mərkəzi Bankı uçot dərəcəsini 0,25 faiz artıracaq:* ”Bu, avronu müvəqqəti olaraq nisbətən bahalaşdıracaq, amma inflyasiyaya qalib gəlmək üçün yetərli deyil. Deməli, il sonuna qədər yenə faiz artımı olmalıdır. Cənub və Şərqi Avropa ölkələri faiz artımından daha çox zərər görəcəklər, iqtisadi daralma yüksələcək. İşsizlik artacaq, insanların real gəlirləri azalacaq. Bir sözlə, dünya siyasi elitası kovid biabırçılığı və Rusiyanın aqressiyasını önləyə bilmir. Bu isə onu deməyə əsas verir ki, yaxın zamanda dünya ölkələrində kardinal şəkildə siyasi idarəetmə elitası dəyişəcək”.

**İsmayıl**



## Britaniyada temperatur rekord dərəcəyə yükləsib

**Britaniyada ilk dəfə olaraq 40° C-dən yuxarı temperatur qeydə alınıb.**

APA-nın Britaniya bürosunun xəbərinə görə, bu gün günorta saatlarında Londonda havanın temperaturu 40,2° C olub.

Bundan əvvəlki rekord 2019-cu ilin iyulunda Kembricdə, 38,7° dərəcə qeydə alınıb.

Sinoptiklər bildirib ki, bu, müvəqqəti rekorddur və temperatur hələ də yüksəlir. Onlar temperaturun 42° dərəcəyə çata biləcəyini vurğulayıblar. Bu da insanların sağlamlığına ciddi təsir göstərə bilər.

Qatar yolları və ictimai nəqliyyatdan lazım olmadığı müddətcə istifadə etməmək məsləhət görülüb.

## Bakıda ananın iki övladı ilə özünü binadan atması barədə cinayət işi başlanıb

**Bakıda ana və iki övladını binadan atması ilə bağlı cinayət işi başlanıb.**

Trend-in məlumatına görə, faktla bağlı Yasamal rayon prokurorluğunda Cinayət Məcəlləsinin 125-ci(özünü öldürmə həddinə çatdırma) maddəsilə cinayət işi başlanıb, istintaq gedir.

Xatırladaq ki, hadisə Bakının Yasamal rayonu, Yeni Yasamal yaşayış massivində baş verib. 1997-ci il təvəllüdlü Abbasova Aytən Maarif qızı iki azyaşlı övladı, 2018-ci il təvəllüdlü Abbasova Sofiya Suslan qızı və 2019-cu il təvəllüdlü Abbasova Sara Suslan qızı ilə birgə binanın beşinci mərtəbəsindən özünü atıb.

Hadisə nəticəsində 3 yaşlı Sara Abbasova ölüb. Ana və onun 4 yaşlı övladı ağır xəsarətlərlə xəstəxanaya yerləşdirilib.

# Rusiya və Çinlə əməkdaşlıq risklər yaradır

## Braziliya, Hindistan Qərblə sıx əməkdaşlıqdan imtina etməyəcək



**Braziliya, Rusiya, Hindistan, Çin və Cənubi Afrika Respublikasının (BRİCS) illik sammiti videoformat çərçivəsində həyata keçirilib. Sammitə Çin sədrlik edib. Bundan əvvəlki sədr Hindistan idi. Videoformat çərçivəsində keçirilən sammitdə problem yaşanıb.**



Rusiya mətbuatı liderlərin müzakirəsi zamanı səs probleminin olduğunu yazıblar. Yəni liderlər bir-birini eşitməkdə çətinlik çəkiblər. Tərçüməçilərin səslərini eştimək mümkün olmayıb. Maraqlıdır ki, videoformat çərçivəsində keçirilən sammitdə heç bir lider Ukrayna müharibəsindən danışmayıb. Ümumiyyətlə, Ukrayna sözünü tələffüz etməyiblər. Rusiya ilə tərəfdaşlıq münasibətlərində olan dövlətlərin liderləri Putini rahatsız etmək istəməyiblər. Digər tərəfdən heç bir lider, o cümlədən tərəfdaşlar Rusiyanın Ukraynaya qarşı müharibədə haqlı olduğunu vurğulamayıb. BRİKS liderləri sammitdə dünya ticarətindəki mövcud vəziyyəti və öz aralarında iqtisadi əlaqələrin gücləndirilməsi mövzularını müzakirə ediblər.

**”Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu deyib ki, ”BRİCS” təşkilatının iki əsas üzvü - Rusiya və Çinə qarşı müxtəlif sanksiyalar mövcuddur. Analitikə görə, digər tərəfdən Hindistanın Çinlə sərhəd problemi var. Buna görə Dehli Pekinlə iqtisadi əlaqələri və ticarəti gücləndirməyə risk etmir:** ”Əksinə, sərhəddə baş verən son insidentdən sonra Dehli Pekinlə planlaşdırdığı bir sıra ortaq iqtisadi layihədən imtina edib. Rusiya və Çindən fərqli olaraq Braziliya, Hindistan və Cənubi Afrika Respublikası ABŞ və Avropa ilə iqtisadi əməkdaşlığın inkişafına və strateji əlaqələrə çalışırlar. ”BRİCS” sadəcə fikir mübadiləsi üçün bir platformadır. Braziliya, Hindistan və Cənubi Afrika Respublikası Rusiya və Çinin xeyrinə Qərblə sıx əməkdaşlıqdan imtina etməyəcək. Təsadüfi deyil ki, Hindistan və Cənubi Afrika Respublikası ”böyük yeddilərin” toplantısına dəvət olunmuşdular. Rusiya ”BRİCS”ə yeni üzvlər qoşmağa cəlb etsə də, bu təşkilatın ABŞ və müttəfiqlərinin formalaşdırdıqları təşkilatlardan üstün olacağı və ya onlarla rəqabət aparacağı problematikdir”.

**İsmayıl**

# Azərbaycanın geo-siyasi mövqeyi daha da gücləndi

## Avropa İttifaqı ilə ölkəmiz arasında strateji əlaqələrin dərinləşməsi müşahidə olunur



**Azərbaycanla Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair imzalanan Anlaşma Memorandumuna görə, növbəti 5 il ərzində Avropaya qaz ixracını 2 dəfə artırmaq üçün birgə səylər göstəriləcək. Bu isə ölkəmiz üçün artan valyuta gəliri, geosiyasi əhəmiyyətin və iqtisadi müstəqilliyin artması, qeyri-neft sektoru inkişafı üçün əlavə gəlir və texnologiya mənbələrinin yaranması deməkdir.**

Bu hadisə Cənub Qaz Dəhlizi layihəsinin həyata keçirilməsinə illər öncə qərar vermiş və buna nail olmuş Prezident İlham Əliyevin iqtisadi siyasətinin nə dərəcədə strateji və uzaqgörən olduğunun göstəricisidir.

Avropa ilə Azərbaycan arasında əməkdaşlığın əsas istiqamətini enerji sahəsi təşkil edir. Bu mənada Avropa Azərbaycana məhz enerji bazarında oynadığı təsirli rola görə təşəkkür edir. 2016-cı ildən başlayaraq Avropa İttifaqı ilə Azərbaycan arasında münasibətlərin yeni bir müstəviyə qalxması istiqamətində danışıqlar gedir. Avropa İttifaqı ilə Azərbaycan arasında yeni bir sənədin imzalanması məsələsi də aktuallıq kəsb edir. Şübhəsiz, bu əlaqələri şərtləndirən başlıca məqam Azərbaycanın malik olduğu hərtərəfli böyük potensialdır. Müsair mərhələdə Avropanı ən çox narahat edən enerji məsələsidir. Avropa ölkələri uzun müddətdir ki, enerji mənbələrinin diversifikasiyasında maraqlıdır. Təbii ki, Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycanın özünəməxsus rolu var. Xüsusilə də Cənub Qaz Dəhlizi layihəsi artıq öz bəhrəsini verməyə başladıqdan sonra Avropanın təbii qaz bazarında Azərbaycanın rolu əhəmiyyətli dərəcədə artıb. Azərbaycan da Avropa İttifaqı ilə əməkdaşlığı genişləndirməkdə maraqlıdır. Ölkəmizin ən böyük ticarət tərəfdaşı Avropa İttifaqıdır.

**Millət vəkili Vüqar Bayramov bildirib ki, Azərbaycanla Avropa İttifaqı arasında imzalanmış Anlaşma Memorandumu strateji əməkdaşlığın daha da gücləndirilməsinə xidmət edəcək.** Deputatın sözlərinə görə, Aİ Azərbaycandan aldığı qazın həcmini 2 dəfə artırmaq və növbəti 5 ildə ən azı 20 milyard kubmetr qaz idxal etmək niyyətindədir. Bu isə Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin formalaşmasında rolunun daha da artacağı anlamına gəlir: ”Rusiya-Ukrayna müharibəsi fonunda Azərbaycanın geostrateji mövqeyi daha güclənməkdədir. Azərbaycan ”Şahdəniz” ilə yanaşı çox yaxın gələcəkdə daha 5 yataqdan qaz hasil edəcək. Bu, ölkəmizin mavi qaz ixracatını artırmaqla yanaşı Avropanın enerji təhlükəsizliyinin formalaşmasında rolunu daha da artıracaq. Azərbaycan Avropa İttifaqı üçün yeganə yeni və mühüm alternativ enerji mənbəyinə çevrilməkdədir. Artıq ”Köhnə Qitə”də Azərbaycan qazını almaq istəyən dövlətlərin sayında kəskin artımlar var. Bu ay istifadəyə verilən Yunanıstan-Bolqarıstan Daxili Şəbəkə ilə ən azı digər 4 Avropa ölkəsi Azərbaycan qazının alıcısına çevrilə bilər. Memorandum tərəflər arasında enerji sahəsində əməkdaşlığın gücləndirilməsini nəzərdə tutsa da bütövlükdə İttifaq ilə Azərbaycan arasında strateji əlaqələrin dərinləşməsi müşahidə olunur. Yeni düzən fonunda bu Azərbaycanın geo-siyasi mövqeyinin daha da gücləndirilməsinə xidmət edəcək. Azərbaycan Rusiya-Ukrayna müharibəsi başladıqdan sonra Avropa Birliyinə mavi qaz ixracatını ən çox artıran ölkədir. Bu ilin ilk yarısında Azərbaycan Avropaya qaz ixracatını əvvəlki ilin uyğun dövrü ilə müqayisədə 68.7 faiz artıraraq 3.2 milyard kubmetrdən 5.4 milyard kubmetrə yüksəldib”.

**Parlament üzvü qeyd edib ki, Avropa İttifaqı da Cənubi Qafqaz ölkələrinin əsas ticarət tərəfdaşı olaraq qalmaqdadır:** ”Aİ-nin ümumi ticarət dövriyyəsində payı Azərbaycanda 36.7, Ermənistanda isə 18 faizdir. İttifaq pandemiyadan əvvəlki il, yəni 2019-cu ildə Azərbaycanda 2.6 milyard avro sərmayə qoyuluşu həyata keçirib.

Azərbaycanla Aİ arasında ticarət dövriyyəsi ötən il 15 milyard dolladək yüksəlib. Bütövlükdə ixracatımızın təxminən 48 faizə yaxını İtaliyaya yönəlib. Bu isə Avropa İttifaqının Azərbaycan üçün əsas ticarət və iqtisadi tərəfdaş olduğunu göstərir. Eyni zamanda Avropa İttifaqının Cənubi Qafqazda ticarət dövriyyəsinin 2/3-i isə Azərbaycanın payına düşür. Bu baxımdan Azərbaycan da Cənubi Qafqazda Avropa İttifaqının əsas ticarət tərəfdaşıdır. Avropa İttifaqı ilə Azərbaycan arasında Strateji Tərəfdaşlıq Sazişinin imzalanacağı gün də uzaqda deyil”.

**İsmayıl Qocayev**



# MEDİA-nın İcraçı direktoru Vətən müharibəsi iştirakçıları ilə görüşüb

**Medianın İnkişafı Agentliyində baş tutan görüşdə Vətən müharibəsində iştirak etmiş Xüsusi Təyinatlı Qüvvələrin mənsubları iştirak ediblər.**

”Şərq” xəbər verir ki, Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında şanlı tarix yazan əsgər və zabitlərimizin göstərdikləri şücaətin hər birimizdə sonsuz iftixar hissi yaratdığını qeyd edib, Vətən müharibəsi iştirakçılarının qəhrəmanlıqlarının mediada işıqlandırılmasına hər zaman diqqətlə yanaşıldığını, onların göstərdikləri igidlik və şücaətin media vasitəsilə ictimaiyyətə çatdırılmasının uşaq və gənclərin vətənə məhəbbət ruhunda tərbiyə edilməsində əhəmiyyətini vurğulayıb.

Görüş zamanı Vətən müharibəsində iştirak etmiş Xüsusi Təyinatlı Qüvvələrin mənsubları keçdikləri döyüş yolundan bəhs edib, media nümayəndələri tərəfindən tarixi Zəfərimizə dair materialların hazırlanması və yayımlanmasının onlar üçün xüsusi mənəvi dəyərə malik olduğunu bildiriblər.

# MEDİA KİV-ə müraciət yaydı

## “İntihar xəbərlərinin geniş tirajlanması haqlı olaraq ictimai narazılığa səbəb olur”

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi açıqlama yayıb. ”Şərq”in məlumatına görə, xəbərdə deyilir:**

- Son zamanlar bir sıra media subyektləri tərəfindən intihar halları ilə bağlı xəbərlərin geniş tirajlanması, xüsusən də yetkinlik yaşına çatmayan şəxslərin özünə qəsd etməsi ilə əlaqədar mövzuları işləyərkən jurnalist peşəkarlığı baxımından yol verilən qüsurlar cəmiyyətdə narahatlıq yaratmaqla, haqlı olaraq ictimai narazılığa səbəb olur.

Xüsusi vurğulamaq istərdik ki, Azərbaycan Respublikasının Audiovizual Şurası və Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi tərəfindən bu ilin aprel ayında ölkənin bütün media subyektlərinə tövsiyə olunmuş ”Redaksiya siyasəti və peşə etikası qaydaları”nda qeyd olunduğu kimi intihara cəhdlə bağlı xəbərlərin təsviri təqlid hissi oyatmamalıdır. İntiharın üsulunu və hadisənin detallarını açıqlamaq, başlığa çıxarmaq, mübaliğəyə yol vermək arzuolunan deyil, eyni zamanda jurnalist peşəkarlığının göstəricisi hesab edilə bilməz.

Zorakılıq, intihar və s. bu kimi insanların sağlamlığına və təhlükəsizliyinə dair mənfi təzahürlərlə bağlı məlumatlar adekvat tərzdə işıqlandırılmalı, onların təbliğinə və təsir gücünün artırılmasına yol verilməməlidir.

Eyni zamanda əhalinin həssas qruplarına, uşaqların, yetkinlik yaşına çatmayanların fiziki, əqli və mənəvi inkişafına ziyan vuran məlumat, o cümlədən təsvirlərdən istifadə olunmamalıdır. Xatırlatmağı zəruri hesab edirik ki, uşaqlara münasibətdə ”Uşaqların zərərli informasiyadan qorunması haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş tələblərə birmənalı şəkildə əməl edilməlidir.

Unutmaq olmaz ki, peşəkar media ictimai əhəmiyyətli informasiyalarla cəmiyyəti məlumatlandırmaq kimi şərəfli və məsuliyyətli missiyanı yerinə yetirir. İntihar halları və bu qəbildən olan digər təzahürlərlə bağlı materialları işıqlandırarkən medianı ictimaiyyət qarşısındakı məsuliyyətinə diqqətlə yanaşmağa və peşəkar həssaslıq nümayiş etdirməyə çağırırıq.

# Qarabağdan erməni silahlılar çıxarılır

## Ermənistan Təhlükəsizlik Şurasının katibi deyib ki, geri çəkilmə prosesi sentyabrda tam yekunlaşacaq

**İsmayıl Qocayev**

**Azərbaycanın Qarabağ bölgəsində qanunsuz olaraq fəaliyyət göstərən erməni silahlı qüvvələrinin bölmələri Ermənistana qaytarılır. Bu barədə Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan bildirib. O deyib ki, 44 günlük müharibə zamanı Ermənistan silahlı qüvvələrinin bir sıra bölmələri Qarabağa göndərilib:**

”Atəşkəs rejiminin yaradılmasından və Rusiya Federasiyasının sülhməramlı kontingentinin yeridilməsindən sonra Ermənistan silahlı qüvvələrinin bölmələrinin çıxarılması tamamilə təbiidir. Ermənistandan Qarabağa artıq hərbi çağırışçılar olmayacaq”.

Təhlükəsizlik Şurasının katibi əlavə edib ki, geri çəkilmə prosesi başa çatmaq üzrədir və sentyabrda tam yekunlaşacaq. Qeyd edək ki, bir müddət öncə Prezident İlham Əliyev erməni silahlılarının Qarabağdan çıxarılması ilə bağlı Ermənistanın üzərinə götürdüyü öhdəliyi icra etməməsinə kəskin narazılığını bildirib və bunun nəticələri olacağını elan etmişdi. Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi (BMTM) İdarə Heyətinin sədri Fərid Şəfiyev vurğulayıb ki, Ermənistan tərəfi bununla faktiki olaraq üçtərəfli bəyanatı icra etmədiyini etiraf etmiş oldu. Şəfiyev Armen Qriqoryanın bəyanatının Prezident İlham Əliyevin bu ilin altı ayının yekunlarına həsr olunan müşavirədəki çıxışından sonraya təsadüf etməsinə diqqət çəkib: ”Prezident İlham Əliyev çıxışında təkcə Ermənistana xəbərdarlıq etməmişdi, həm də Rusiya sülhməramlı qüvvələrinin fəaliyyətinə toxunmuşdu. Faktiki olaraq buna onlar şərait yaradıblar. Ola bilsin ki, bu məsələdə Rusiya sülhməramlı qüvvələrinin Ermənistana təzyiqi var. Amma gözləməkdə fayda var. Görək, Ermənistan bunu necə icra edəcək”.



### Bakı rəsmi Moskvanın da mövzu ilə bağlı açıqlamasını gözləyir

**Azərbaycan Milli İstiqlal Partiyasının sədri Arzuxan Əlizadə ”Şərq”ə bildirib ki, üçtərəfli bəyanatın 4-cü bəndinə əsasən, rus sülhməramlılarının Azərbaycana daxil olması ilə paralel olaraq erməni hərbi birləşmələri ərazini tərk etməli idi. Partiya rəhbərinin sözlərinə görə, xeyli zaman keçsə də, bu, baş vermədi:** ”2020-ci ilin dekabrın 1-dək razılaşmada nəzərdə tutulan digər proseslərin baş verməsini gözlədik. Ardıcıl olaraq Ağdam, Kəlbəcər və Laçın Azərbaycana təhvil verildi. Laçının boşaldılmasından sonra konkret olaraq erməni silahlıları ilə bağlı məsələnin üzərinə getməyə çalışdıq. Qarabağdakı erməni silahlılarının hərbçilərimizə, mülki vətəndaşlarımıza təhdid yaratdığını davamlı dilə gətirdik. Ümumən, torpaqlarımızdakı erməni terrorçuları ilə bağlı ölkə ictimaiyyətində ciddi narazılıq var idi. Bir müddət sonra dövlət başçısı məsələnin üzərinə getdi. Eyni zamanda Rusiyanın vəzifəli şəxsləri Azərbaycanda səfərdə olarkən Müdafiə Nazirliyimiz tərəfindən erməni silahlılarının çıxarılması məsələsi xüsusi vurğulandı. Qeyd olundu ki, üçtərəfli sazişin 4-cü bəndinin icrasında Rusiyanın üzərinə məsuliyyət düşür. Prezident sonuncu müşavirədə çıxışı zamanı çox doğru olaraq bəyan etdi ki, Rusiyanın siyasi-hərbi rəhbərliyinin də məsuliyyət payı var. Bəyannaməyə imza atan tərəflərdən biri Rusiya rəhbərliyidir. Qarabağdakı erməni silahlı qruplaşmaları birmənalı ölkəni tərk etməlidir. Ermənistanın Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanın sözləri yekun və yetərli açıqlama deyil. Sadəcə, hazırkı situasiyada Azərbaycan konkret mövqe ortaya qoyduğu, dövlət başçısı İrəvana və Moskvaya mesaj verdiyi üçün Ermənistan rəsmiləri öz açıqlamaları ilə vəziyyəti bir qədər ”yumşaltmağa” çalışırlar. Ermənistan və Rusiya rəhbərliyi birmənalı olaraq konkret vaxt müəyyən etməli və həmin gündən etibarən erməni silahlıları Qarabağdan çıxarılmalıdır. Erməni tərəfi sentyabr ayında prosesin sona çatacağını deyir. Ancaq Rusiyanın bununla bağlı heç bir rəsmi açıqlaması yoxdur”.

**A.Əlizadə vurğulayıb ki, rəsmi Bakının tələbi aydın və konkretdir:** ”Azərbaycan torpaqlarında bir nəfər erməni silahlısı qalmamalıdır. Erməni silahlı qruplaşmaları dedikdə, sadəcə, Qarabağdakı separatçıları nəzərdə tuturuq. Azərbaycan ərazisində Ermənistanın hərbi strukturlarına, hüquq-mühafizə orqanlarına bağlı da silahlı dəstələrin mövcudluğu yolverilməzdir. Ardıcıl olaraq bu məsələnin üzərinə gedilməli, ərazimizdə erməni hərbi birləşmələrinin varlığına birdəfəlik son qoyulmalıdır. Əks halda ən tez zamanda Qarabağdakı terrorçuları tərksilah etmək, zərərsizləşdirmək məqsədi ilə Azərbaycan Ordusunun növbəti antiterror əməliyyatı başlayacaq. İstənilən an bu hüquqdan istifadə etmək haqqımız var”.

# İqtisadi böhran ABŞ-ı geri çəkilməyə məcbur edir

## Artıq Qərblə Rusiya arasında gizli danışıqlar gedir



**Amerika Rusiyaya qarşı olan sanksiyalarının bəzisini ləğv edib.**

**Bu faktı ABŞ Maliyyə Nazirliyi təsdiqləyib. Bildirilir ki, Rusiya ilə kənd təsərrüfatı, energetika, tibb sahələrində, o cümlədən koronavirusla mübarizə, tranzit uçuşlar, eləcə də qeyri-hökumət təşkilatlarının işinə təsir edən əməliyyatlarla bağlı sanksiyalar aradan qaldırılıb.**

O cümlədən, ABŞ ”Qazprom”un keçmiş törəmə şirkəti ”Gazprom Germania GmbH”, eləcə də ”Alfa-Bank”ın Qazaxıstandakı törəmə müəssisəsi olan ”SC Alfa Bank” sanksiyalar siyahısından çıxarılıb. Əməliyyatlar isə ”SEFE Securing Energy for Europe GmbH” ilə dekabrın 16-dək aparıla bilər.

Sanksiyaların yumşaldılmasından sonra belə görünür ki, ABŞ Ukraynanı savaş meydanında tək buraxır.

**İddiaları şərh edən analitik Aqşin Kərimov ”Şərq”ə bildirib ki, ABŞ-ın tətbiq etdiyi sanksiyalar bumeranq effekti verərək öz başında çatlayıb:** ”ABŞ-ın Rusiyaya qarşı tətbiq etdiyi bəzi sanksiyaları aradan qaldırması, üstəgəl, Avropa İttifaqının da analoji addımlara getmək ehtimalı onu göstərir ki, Moskva Ukraynadakı müharibədə üstünlük qazanıb.

Bu üstünlüyün nə qədər davam edəcəyini söyləmək çətindir, amma bəlli olan budur ki, Qərb Ukraynaya müharibədə dönüş nöqtəsi yarada biləcək silahlar verməkdən çəkinir.

Qərb cəmiyyətləri fərqlidir və Qərb ölkələri xarici siyasətdə elə kurs tutmağa çalışırlar ki, əhali hökumətlərə qarşı hərəkətə keçməsin.

Qərb ölkələrinin əhalisini Rusiya-Ukrayna müharibəsinin nəticələri çox da maraqlandırmır, onlar əsasən, fərdi azadlıqlara və dövlətin bu sahədəki öhdəliklərinə, sosial məqsədlərə önəm verirlər.

Qərbin tətbiq etdiyi sanksiyaların bumeranq effekti verərək öz başında çatlaması səbəbindən sosial etirazlar dalğası başlaya bilər.

Ona görə də sanksiyaların yumşaldılmasına gedilir ki, Qərb ölkələri üzərində yaranan iqtisadi təzyiqlərin dozası aşağı düşsün.

Mən inanmıram ki, Qərb Ukraynanı tək qoymaq niyyətindədir, amma strateji məcburiyyətdən dolayı bəzi məqamlarda prinsipiallıqdan geri çəkilmək çağırışı ilə üzləşir.

Ümumilikdə isə əminlik artır ki, Rusiya ilə Qərb arasında gizli danışıqlar gedir. Niyə də olmasın?! Rusiyanın süni şəkildə yaratdığı taxıl böhranı dünyanı aclıq məngənəsinə sala bilər. Bu isə Qərbin qoyduğu sanksiyaların nəticəsi olaraq Rusiyanın əks-tədbiri kimi dəyərləndirilməlidir.

Qərb ac qalmaq istəmir, Rusiya isə Ukraynada istədiyini almağı hədəfləyir. Qərb Ukraynaya dəstəyini davam etdirəcək, ara-sıra isə Rusiya ilə təmaslarını gücləndirəcək. Qərb də, Rusiya da böyük qlobal maraqları olan güclərdir, bu mənada Ukraynadakı münaqişənin nəticələrini nüfuz dairələrinə bölüşdürmək uğrunda danışıqların getdiyini söyləyə bilərik”.

**Nihat Müzəffər**




# Qarabağa qayıdış başladı

## Artıq Zəngilan sakinlərinin bir qrupu öz yurdlarına, Ağalı kəndinə döndülər

**Akif Nağı:**
“Onlar baharın ilk qaranquşları kimidir. Hamımız onların sevincinə şərik oluruq”

**Əlisahib Hüseynov:**
“Mən bu yaxınlarda o kənddə oldum və orada görülən işlərlə gerçəkdən də qürur duydum”




**19 iyul 2022-ci il Azərbaycan tarixində önəmli günlərdən biri kimi qalacaq. Çünki işğaldan azad edilmiş torpaqlarımıza Böyük Qayıdış prosesinə məhz həmin gündə start verildi. Otuz ilə yaxın doğma yurdlarına qovuşmaq həsrəti ilə yaşayan məcburi köçkünlərimiz sevinc göz yaşları, eyni zamanda qürurlu hisslərlə öz yurdlarına geri döndülər.**

Tarixi köç Zəngilan rayonunun Ağalı kəndinə 10 ailənin köçürülməsi ilə başlandı. On ailənin üzvləri Daxili İşlər Nazirliyinin əməkdaşlarının müşayiəti ilə öz doğma yurd-yuvalarına yola salındı. Ağalı sakinlərini yolasalma tədbirindən sonra jurnalistlərin suallarını cavablandıran Prezidentin Zəngilan rayonunda xüsusi nümayəndəsi Vahid Hacıyev bütün köç prosesinin dövlətimizin başçısının birbaşa nəzarəti altında olduğunu bildirdi. Ümumilikdə ”Ağıllı kənd” konsepsiyasına uyğun qurulan Ağalı kəndinə 4 mərhələdə köçürüləcək 41 ailənin, təxminən 200 nəfərin hər cür şəraitlə təmin olunacağını vurğuladı. Onun sözlərinə görə, Ağalıda məskunlaşacaq sakinlər yüksəkkeyfiyyətli, ”ağıllı” texnologiyalarla təchiz edilmiş evlərlə təmin olunacaqlar. Burada yaşayacaq əhalinin məşğulluq, sosial, təhsil, tibbi məsələləri müvafiq qurumlar tərəfindən həll ediləcək. Qeyd edək ki, işğala qədər bu inzibati ərazi 3 kəndi birləşdirib. Həmin dövrdə Birinci Ağalıda 40 ailə, İkinci Ağalıda 60 ailə, Üçüncü Ağalıda isə 161 ailə yaşayıb. İlkin mərhələdə köçürülən ailələr əsasən müvəqqəti məskunlaşma yerlərində ən ağır şəraitdə yaşayanlar arasından seçilib. Bu zaman köçürülmə üçün təqdim edilən yaşayış sahələrinin həcmi nəzərə alınıb. Köçürülənlər arasında Birinci, İkinci və Üçüncü Ağalı kəndlərinin hər birinin sakinləri var.

**Tarixi köçün başlaması ilə bağlı ”Şərq”ə danışan Qarabağ Azadlıq Təşkilatının sədri Akif Nağı deyib ki, 30 illik torpaq həsrətindən sonra sakinlərin yenidən öz yurdlarına geri dönüşünü sözlə ifadə etmək çətindir.** QAT rəhbərinin sözlərinə görə, böyük əksəriyyət işğal altında olan torpaqlarımızın azadlığını xəyal kimi görürdü: ”Şükür Allaha, torpaqlarımız işğaldan azad edildi, Böyük Qələbə xalqımıza, dövlətimizə nəsib oldu. Amma yenə də Böyük Qayıdış prosesinin tezliklə başlaması istiqamətində cəmiyyətdə müəyyən narahatlıq var idi. Bəziləri prosesin illərlə uzanacağını iddia edirdilər. Lakin köç başladı və artıq Zəngilan sakinlərinin bir qrupu öz yurdlarına, Ağalı kəndinə döndülər. Hamı çox yaxşı bilir ki, qayıdış ağır və çətin prosesdir. Əvvəlcə əsas infrastruktur qurulmalı, vətəndaşların normal yaşayışının təmin olunması üçün mövcud şərtlər təmin edilməlidir. Qısa zamanda paralel işlər görülməklə Zəngilan rayonunun Ağalı kəndləri yaşayış üçün əlverişli vəziyyətə gətirildi. Bunun özü dövlətimizin gücünü, imkanlarını göstərir. Zəngilanda çox gözəl evlər inşa olunub. Azərbaycan Qarabağdakı quruculuq işlərini heç kimdən kömək, maddi dəstək almadan özü, təkbaşına həyata keçirir. Qarabağa ilk köçənləri təbrik edirəm, onlar tarixi anın ən şanslı iştirakçılarına çevrildilər. Onlar baharın ilk qaranquşları kimidir. Hamımız onların sevincinə şərik oluruq. İnşallah, köç prosesinin davamı da gələcək. Yaxın aylarda proses daha genişmiqyaslı olacaq”.

**Milli Həmrəylik Partiyasının sədri Əlisahib Hüseynov da ”Şərq”ə bildirib ki, hamının, zəngilanlıların isə hamıdan daha çox gözlədiyi o möhtəşəm gün gəldi.** Partiya rəhbəri qeyd edib ki, uzun illərin həsrətindən, gözləntisindən sonra Şərqi Zəngəzura Böyük Qayıdışın ilk mərhələsinin şahidi olduq: ”44 günlük Vətən müharibəsindəki tarixi Qələbəmiz kimi qayıdışın başlanması da olduqca mühüm tarixi hadisədir. Hamımızda qürur hissi doğuran bu möhtəşəm hadisəyə sevinməmək mümkün deyil. Sevincli anları öz canları, qanları bahasına bizə yaşadan şəhidlərimizə, qazilərimizə hər zaman minnətdar olacağıq. 30 ilin məşəqqətlərindən sonra bu gün soydaşlarımızın yurd həsrətinə son qoyulması həm siyasi, həm də mənəvi-psixoloji baxımdan olduqca əhəmiyyətli hadisədir. 44 günlük müharibə bitəndən dərhal sonra Prezident İlham Əliyevin təşəbbüsü və daimi nəzarəti ilə həm Qarabağda, həm də Şərqi Zəngəzurda geniş miqyaslı bərpa və quruculuq işlərinə start verilməsinin ilkin nəticələri artıq özünü göstərməkdədir. Yollar çəkilir, hava limanları tikilir, məktəblər və xəstəxanalar bərpa edilir. Bir sözlə, bu saat Qarabağ və Şərqi Zəngəzur əsrin nəhəng tikinti meydançasını xatırladır”.

**Ə.Hüseynov bildirib ki, məcburi köçkünlük həyatına son qoyulan soydaşlarımızın qayıdışı üçün də layihələr həyata keçirilir:** ”Bu istiqamətdə ilk olaraq Zəngilanın Ağalı kəndində bərpa olundu. Mən bu yaxınlarda o kənddə oldum və orada görülən işlərlə gerçəkdən də qürur duydum. Bu kənd bütünlüklə ”Ağıllı kənd” konsepsiyası əsasında qurulub və bu ay ərzində 41 ailə Ağalı kəndinə köçürüləcək. Növbəti aylarda da köçürmələrin baş tutacağı gözlənilir. Bu gün bu istiqamətdə ilk addım atıldı, 58 nəfərdən ibarət 10 ailənin Ağalı kəndinə köçürülməsinə start verildi.

Mən bu münasibətlə bütün Azərbaycan xalqını təbrik edirəm, zəngilanlı bacı və qardaşlarımızı təbrik edirəm, Ağalıya ilk köçən insanlarımızı təbrik edirəm. Cənab Prezident və Ali Baş Komandan İlham Əliyevə də təşəkkür edirəm. Çünki məhz onun qətiyyəti və iradəsi nəticəsində Vətən müharibəsindəki qələbəmizdən sonra əzəli və əbədi torpaqlarımıza qayıdış hədəfimiz gerçəkləşməyə başlayır. İnşallah işğaldan azad olunan ərazilərin hər yerində bu cür qayıdış sevincinin şahidi olacağıq”.

**İsmayıl Qocayev**

# Görülməli işlər çoxdur

## Aİ-nin regionla bağlı gələcək planları Azərbaycanın xeyrinə olacaq



**Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramov Azərbaycan-Avropa İttifaqı Əməkdaşlıq Şurasının iclasında iştirak etmək məqsədilə Brüssel şəhərində işgüzar səfərdədir.**

Səfər çərçivəsində nazir Ceyhun Bayramovun Azərbaycan-Avropa İttifaqı Əməkdaşlıq Şurasının 18-ci iclasında iştirakı, həmçinin ikitərəfli görüşlərin keçirilməsi nəzərdə tutulub.

Ermənistan XİN rəhbəriylə görüşdən sonra Ceyhun Bayramovun Brüsselə getməsi və burada ikitərəfli görüşlərdə hansı məsələlərin müzakirə ediləcəyi maraq doğurur.

**Nazirin Brüsel qovluğundakı müzakirə mövzularını dəyərləndirən ”Beynəlxalq Münasibətlər və Diplomatiya Araşdırmaları” Mərkəzinin sədri, politoloq Samir Hümbətov ”Şərq”ə deyib ki, Avropa İttifaqı son dönəmlər Azərbaycan və Ermənistan arasındakı mübahisəli məsələlərin həll edilməsi və regiondakı təsir gücünün artması üçün bir çox addımlar atır:** ”Avropa İttifaqı ilə Azərbaycan arasında görülən və görülməli olan çox işlər var. Aİ-nin atdığı addımlar sırasında ən çox diqqəti cəlb edən Azərbaycan Prezidenti cənab İlham Əliyevlə Ermənistan Baş naziri Nikol Paşinyan arasında Brüsseldə Aİ-nin sədri Şarl Mişelin təşkilatçılığı ilə keçirilən görüş oldu. Dekabrın 14-ü, aprelin 6-sı və mayın 22-də keçirilən bu görüşlərin ardından tərəflər arasında əldə edilmiş razılıq, sərhədlərin delimitasiya prosesinin aparılması üçün hər iki tərəfin komissiya təşkil etməsi, Azərbaycanla Ermənistan arasında münaqişənin bitməsi və sülhün bərqərar olması üçün addımların atılması Aİ-nin regionla bağlı gələcək planlarından xəbər verir.

Düşünürəm ki, C.Bayramovun Brüssel səfəri çərçivəsində müzakirə olunacaq ikitərəfli mövzular Aİ-lə Azərbaycan arasında iqtisadi, siyasi, mədəni və s. sahələrdə əməkdaşlıqla bağlıdır.

Eyni zamanda Ermənistan və Azərbaycan arasında münaqişənin həlli yolunda Avropa İttifaqının rolunun artırılması və regional amillər, Rusiya-Ukrayna müharibəsi fonunda Avropanın üzləşdiyi enerji böhranının həlli istiqamətində Azərbaycanın Aİ-yə verə biləcəyi dəstəyin nədən ibarət olması da müzakirə oluna bilər. Nəzərə almalıyıq ki, Azərbaycan təkcə neft və qaz ixracatçısı deyil. Eyni zamanda şimal-cənub, şərq-qərb nəqliyyat dəhlizi qovşağının üzərində yerləşir.

Xatırladaq ki, Xəzər hövzəsində yerləşən Türkmənistan və Qazaxıstanın nefti və qazı var.

Onların Avropaya nəqli məsələsi də gündəm ola bilər. Gözlənilir ki, yaxın zamanlarda Prezident İlham Əliyev və Nikol Paşinyan arasında Aİ-nin təşkilatçılığı ilə 4-cü görüş keçirilsin. Onun detallarının da müzakirə olunacaq mövzular sırasında olması labüddür. Bu məsələlər baxımından bizim üçün faydalı ola biləcək məqamlar çoxdur”.

**Nihat Müzəffər**

# "Ağalı kəndinin sakinləri çox xoşbəxtdir"

## Bu gün həm də ikinci Zəfər günüdür

**Azərbaycanın işğaldan azad edilmiş Zəngilan rayonunun Ağalı kəndinə əhalinin köçürülməsinə start verilib. Uzun və həsrət dolu illərdən sonra Ağalı sakinlərinin geri qayıtması hər kəsdə sevinc, fərəh və ən əsası qürur hissi yaradıb. İllərdir doğma yurd-yuvalarından ayrı düşmüş sakinlərin sevinci gözlərindən oxunub.**

Zəngilan rayonunda ”ağıllı kənd” konsepsiyası əsasında yenidən salınmış Ağalı kəndinə əhalinin köçürülməsinin birinci mərhələsinə həsr edilmiş tədbir Abşeron rayonunun Masazır kəndi ərazisində məcburi köçkünlər üçün salınmış yaşayış kompleksində keçirilib. Məcburi köçkünlərin ilk qrupu Abşeron rayonu Masazır qəsəbəsində yerləşən ”Zəngilan şəhərciyi”ndən Daxili İşlər Nazirliyinin əməkdaşlarının müşayiəti ilə öz doğma yurd-yuvalarına yola salınıb.




**Ağalı kənd sakinlərinin öz yurdlarına qayıdışını ”Şərq”ə şərh edən Elşad Eyvazlı bildirib ki, bu gün 44 günlük zəfərimizin hərtərəfli nəticələrini yaşayırıq:** ”Hətta bu günü ikinci Zəfər günü belə adlandırırlar. Doğru da deyirlər. Artıq bununla da bizim Böyük Qayıdışın başlanğıcı qoyuldu. Hesab edirəm ki, artıq digər keçmiş məcburi köçkünlər də bu xəbərdən sonra öz yurdlarına qayıtmağa səbirsizlənəcək. Birmənalı şəkildə bütün bunlar Azərbaycanın möhtəşəm qələbəsinin nəticəsi kimi dəyərləndirilməlidir. Hətta deyərdim ki, Ağalı kəndinin sakinləri çox xoşbəxtdirlər ki, ilk olaraq onlar geri dönürlər. Bununla tarix yenidən yazılır.

Mən həm sakinləri, həm də bütün Azərbaycan xalqını təbrik edirəm. Artıq bizim geriyə dönüşümüz başladı. Düşünürəm ki, bu, davamlı olacaq. Çünki erməni işğalından azad olunan bütün bölgələrimizdə quruculuq və bərpa işləri gedir. Gözümüzü yumub-açacağıq ki, bütün azad olunmuş rayonların sakinləri öz ev-eşiklərindədir”.

**Çimnaz Şahlar**

**İsmayıl Qocayev**

# Türkiyə terrorla mübarizədə israrlıdır

## Ərdoğanın Rəisi ilə görüşü xoş ovqatda keçib

**Dünən Tehranda İran Prezidenti İbrahim Rəisi ilə Türkiyə dövlət başçısı Rəcəb Tayyib Ərdoğan arasında görüş keçirilib. Türkiyə və İran liderləri arasında hərbi, siyasi və regional məsələlər müzakirə edilib. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bildirib ki, iki ölkə ticarət dövriyyəsində 30 milyard dollarlıq hədəfə çata bilməyib. Buna pandemiya mane olub:**

”Hazırda ticarət dövriyyəmiz 7,5 milyard dollardır. 30 milyard dollara yetişəcəyik. Müdafiə sənayesində bu hədəfə çatmaq mümkündür. Neft və təbii qaz sahəsində atacağımız addımlarla da bu hədəfə yetişmək mümkündür”. Ərdoğan deyib ki, terrorla mübarizə bizim üçün çox vacibdir: ”Terrorçular artıq hər iki dövlət - həm Türkiyə, həm də İran üçün problemə çevrilib. Bunları artıq NATO sənədlərinə də daxil etmişik. Terrorçular hansı ölkədə olursa-olsunlar, o ölkədə sabitliyə, hüzura mane olurlar”. İki ölkə arasında uzunmüddətli əməkdaşlıq planı, sosial təminat və idmanın inkişafı, kiçik iqtisadi müəssisələrin dəstəklənməsi, radio və televiziya sahəsində əməkdaşlıq sahəsində mühüm sənədlər də imzalanıb. Maraq doğuran məqamlardan biri də Türkiyə lideri Rəcəb Tayyib Ərdoğanın ali rəhbər Seyid Əli Xamenei ilə də görüşməsi olub. Xamenei və Ərdoğan bir sıra önəmli mövzuları müzakirə ediblər.

**Siyasi şərhçi Aqşin Kərimov ”Şərq”ə bildirib ki, Türkiyə rəhbəri Ərdoğanın iranlı həmkarı Rəisi ilə müzakirələrini iki ölkə arasındakı iqtisadi-ticari əlaqələrin inkişafına doğru atılacaq perspektiv addımlar, Xamenei ilə danışıqlarını isə siyasi fikir ayrılıqlarının diplomatik ifadəsi kimi qiymətləndirmək mümkündür.** Analitik vurğulayıb ki, Xamenei Ankaranın siyasətini özünəməxsus şəkildə tənqid edib. Lakin tənqidi sülh və təhlükəsizlik adı ilə məharətlə pərdələməyi bacarıb: ”Xamenei Türkiyənin Suriyanın şimalında növbəti hərbi əməliyyatlar keçirməsi mövzusuna toxunaraq qısqanclığını nümayiş etdirib. Ali rəhbər Türkiyənin mümkün əməliyyatlarına işarə edərək qeyd edib ki, Suriyanın şimalında hər hansı hərbi addım Türkiyənin də, Suriyanın da zərərinə olacaq. Xameneinin fikrincə, Suriyanın şimalındakı hərbi əməliyyatlardan yalnız terrorçular fayda götürə bilər. Bununla da rəsmi Tehran Türkiyənin öz sərhədlərinin təhlükəsizliyini təmin etmək siyasətini tənqid edir. Xamenei Fələstin mövzusunu da özünün qurduğu ”dəyirmi masa”nın mərkəzində tutub. Bu fonda yenə Ankaranın İsraillə əlaqələrinin möhkəmlənməsindən sətiraltı şəkildə bərk narahatlığını dilə gətirib. Ərdoğan isə terrorla birgə mübarizənin vacibliyini dilə gətirib. Xamenei buna müsbət cavab verib. Hərçənd, bu mövzuda Tehranın hansı yardım edəcəyi də böyük sual işarələri altındadır. Türkiyə lideri öz tərzinə sadiq qalaraq ölkəsinin Suriya ilə bağlı mövqeyinin qəti olduğunu deyib. Bu, özündə o mənanı daşıyır ki, Ankara öz təhlükəsizliyini İranın arzuları əsasında yox, özünün milli-strateji maraqları çərçivəsində təmin edən siyasəti davam etdirəcək. Ərdoğan Türkiyənin İrana qarşı tətbiq edilən birtərəfli sanksiyalara qarşı olduğunu deyib. Ədalətsiz qərarlara qarşı Ankaranın mövqeyini ortaya qoyub”.



Xamenei ilə baş tutan danışıqlarda isə fikir ayrılıqları müşahidə olunub

Ekspert qeyd edib ki, regionda yaranan yeni reallıq da Xamenei-Ərdoğan görüşündə masaya yatırılıb. Lakin İran lideri diplomatik tövrlə təhdid qarışıq bir məsələni gündəmə gətirib: ”İran bir daha Azərbaycan-Ermənistan sərhədlərinin müəyyən edilməsi prosesindən ciddi narahatlığını bəyan edib. Xamenei deyib ki, ”Qarabağın Azərbaycana geri verilməsindən məmnunam. Ancaq İran-Ermənistan sərhədini əngəlləmə siyasəti gündəmdə olacaqsa, ölkəmiz buna qarşı çıxacaq. Çünki bu sərhəd min illərdir ki, əlaqə yoludur”. Nəzərə almaq lazımdır ki, Azərbaycanın öz torpaqlarını Ermənistanın işğalından azad etdikdən sonra İranla sərhədinin 132 kilometrinə nəzarəti bərpa edib. İran isə bu sərhəddəki 38 kilometrlik zolağı özünə dərd edib, yəni sərhəd dəyişikliyinin qəbuledilməzliyini regionda yeni oyunçuların çoxalması ilə əlaqələndirir. Ancaq təkcə bununla iş bitmir. Tehran həm də işğal zamanında əldə etdiyi qeyri-leqal gəlirlərdən indi məhrum olduğuna görə, maliyyə itkisini həzmə verə bilmir.

Xameneinin sərhədə narahat baxışlarına dair ifadəsində konkret nələrin ehtiva edildiyi də görünmür. Amma onun bəyanatının arxasında Azərbaycan-Ermənistan gündəliyindən İrana qarşı yönələn təəssüratlar yaratmaq cəhdləri durur. Üstəgəl, aşkar etmək çətin deyil ki, ali rəhbər Zəngəzur dəhlizinin reallaşmasının Azərbaycana verəcəyi hədsiz üstünlüklərin qarşısına keçmək istəyir”.

**A.Kərimovun fikrincə, Xamenei ilə Ərdoğanın müzakirəsi gərgin atmosferdə olsa da, Türkiyə liderinin Prezident Rəisi ilə görüşü xoş ovqatda keçib:** ”Prezidentlər görüşdən sonra birgə bəyanatla çıxış ediblər. Ərdoğan da, Rəisi də iqtisadi əlaqələrə vurğu edərək, iki ölkə arasındakı ticarət dövriyyəsinin 7.5 milyard dollardan 30 milyard dollara qaldırılmasının hədəfdə olduğunu deyib. Diqqət mərkəzinə gətiriləcək nöqtələrdən biri də budur ki, Ərdoğan bu rəqəmə çatmaq üçün iki ölkə arasında müdafiə sənayesi sahəsində əməkdaşlığı da formul kimi önə çəkib. Türkiyə lideri PKK, PYD, PJAK, FETÖ kimi təşkilatların həm İran, həm də Türkiyə üçün ciddi mənada bəla olduğunu vurğulayaraq Tehranın da bu mövzularda manipulyasiyalara yol verməməsinə işarə edib”.



# Suriya, İraq mənzərəsi onlara dəhşət yaşadıb

## Vətənə dönən uşaqlarla davamlı psixoloji iş aparılmalıdır

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyi İraq və Suriyadan Vətənə qaytarılan şəxslərin (repatriant) sosial reinteqrasiyası və sosial-reabilitasiyası tədbirlərini davam etdirir. Nazirliyin məlumatında qeyd olunur ki, artıq Suriya və İraqdan ölkəyə gətirilən daha 10 repatriant uşaq və 2 ana yaşadıqları ailədə Agentliyin sosial işçiləri tərəfindən təfsilatlı qiymətləndirilib və onlar üçün sosial reabilitasiya planı hazırlanıb.**

Psixoloqlar tərəfindən ilkin sosial-psixoloji yardım xidməti zamanı hər bir şəxslə ayrıca psixoloji qiymətləndirmə həyata keçirilib, travma sonrası müşahidə olunan əlamətlərin kəskinliyi qiymətləndirilib. Repatriasiya olunmuş şəxslər və onların ailə üzvləri ilə sosial-psixoloji dəstək üzrə xüsusi əhəmiyyət daşıyan reabilitasiya işi davam etdirilir. Bu ilin ilk 6 ayında Sosial Xidmətlər Agentliyinin psixoloqları tərəfindən ümumilikdə 11 rayon üzrə 105 repatriasiya olunmuş şəxs sosial reabilitasiya və reinteqrasiya işinə cəlb edilib. Ümumilikdə isə ölkə üzrə 146 ailədə 378 repatriantla iş aparılır. Qeyd edilir ki, 2018-ci ilin avqust ayından etibarən Azərbaycan vətəndaşları mərhələli şəkildə repatriasiya edilir. Həmin şəxslərin reabilitasiya və reinteqrasiyası aidiyyəti dövlət qurumları ilə birgə həyata keçirilir.

Azərbaycanlıların Suriya və İraq ərazisində qalması bu və ya digər şəkildə həmin ölkələrdəki müharibə şəraiti ilə bağlıdır. Onlar arasında bu ölkələrdəki silahlı münaqişələrdə birbaşa iştirak edənlər, özündən asılı olmayan səbəblərdən geri dönə bilməyən qadınlar, eləcə də, taleyin hökmü ilə bu ölkələrdə dünyaya gələn körpələr də var. Geri dönmək istəyənlərə və çarəsiz qalanlara Azərbaycan dövləti yardım edir. Nazirliyin də açıqladığı kimi qayıdış proqramı 2018-ci ildən icra olunur, hazırda 2378 repatriantla - geri dönənlərlə sosial-psixoloji iş aparılır. Kimin hansı səbəbdən Suriya və İraq müharibəsinin od-alovunun içində qalması, başqa mövzudur. Silahlı münaqişələr və müharibələrdə ən çox zərər çəkənlərin məhz uşaqlar olması isə təkzibolunmaz faktdır. Ötən il Türkiyə Respublikasının Hatay vilayətinin İskəndərun uşaq evində saxlanılan Azərbaycan Respublikası vətəndaşı olan 4 nəfər uşağın vətənə repatriasiyası həyata keçirildi. Onların ölkəyə gətirilməsi Azərbaycan Respublikasının hökuməti tərəfindən görülmüş mərhələli tədbirlər nəticəsində baş tutdu. Yəni bu, davamlı işdir.

**Suriya və İraqdan Azərbaycana qayıdan soydaşlarımızla bağlı həyata keçirilən sosial reabilitasiya proqramı barədə "Şərq"ə danışan Azərbaycan Uşaqlar Birliyinin sədri Kəmalə Ağazadə sosial-psixoloji yardımın əhəmiyyətini vurğuladı:**

- Öncə vətənə repatriasiyası nəzərdə tutulan uşaqların yeri, şəxsiyyəti və Azərbaycan Respublikasının vətəndaşlığına mənsubiyyəti müəyyən edilir. Daha sonra onların qayıdışına məsul işçi qrup formalaşır və müəyyən edilmiş ölkəyə ezam edilirlər. Türkiyədən Azərbaycana gətirilən uşaqlarla bağlı məhz belə oldu. Bu, dövlət tərəfindən həyata keçirilən xüsusi repatriasiya proqramıdır. Uşaqların ilkin tibbi və psixoloji müayinəsi həyata keçirilir, onlara zəruri yardım göstərilir, "Azərbaycan Respublikasına qayıdış şəhadətnamə"ləri və uçuş biletləri ilə təmin edilir və geri qayıdırlar. Azərbaycan hökuməti milli qanunvericiliyə və ölkəmizin tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq öz vətəndaşlarının hüquq və azadlıqlarının qorunması istiqamətində zəruri tədbirləri həyata keçirir. Dövlət vətəndaşlarını yiyəsiz, sahibsiz qoymur. Məlumdur ki, İraq və Suriyadan Azərbaycana gətirilən uşaqlar müəyyən qruplaşmaların nəzarətindəki ailələrə mənsubdur. Əgər onlar sığınacaqda, uşaq evində olublarsa, deməli, valideynləri ya həbsdədir, ya da vəfat edib. Əvvəlcə bu araşdırılır, çünki uşaqların ailəsi yoxdursa, bu hal onlarla bağlı veriləcək qərara təsir edir. Belə uşaqların xüsusi reabilitasiyaya ehtiyacı olduğundan onlar dövlət müəssisəsinin (Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin) sığınacağına yerləşdirilir. Çünki bu uşaqlarla davamlı psixoloji iş aparılmalıdır. Uşaqların reabilitasiyası başa çatdıqdan sonra onların harada yerləşdiriləcəyi ilə bağlı qərar verilir. Əgər uşaqların valideynlərinin olmadığı müəyyənləşibsə, ikinci dərəcəli qohumları varsa və onlar qəyyum kimi çıxış edirlərsə, o zaman qəyyum təyin edilirlər və uşaqlar həmin ailələrə verilir. Yox əgər, qohumlar olmasa, hər iki valideyni itirmiş və ya valideyn himayəsindən məhrum uşaqlar kimi uşaq müəssisəsinə yerləşdirilirlər. Bütün hallarda istər uşaq olsun, istər böyüklər, onlara psixoloji iş aparılmalıdır. Onların cəmiyyətə inteqrasiyası üçün reabilitasiya proqramlarının düzgün təşkili çox önəmlidir. Bu şəxslər Suriya, İraq mənzərəsindən uzaqlaşmalı, psixoloji durumları sağlamlaşmalıdır.

Məlahət Rzayeva

# Şəhid kapitanın şərəfli döyüş yolu...

## Elman Malıyev Vətən Müharibəsi Qəhrəmanının həyatını qələmə alıb




**"..Həyatımızın bu qədər gözəlliklərini, çalarlarını ömrümün sadəcə 6 ilinə yazdı. Onunla keçirdiyim günləri heç nə əvəz etməyəcək. Bu ideal insan, sadiq həyat yoldaşı, sirdaş, qayğıkeş ata bir də bu dünyaya gəlməz. Mən özümü güclü hiss edirəm. Onu daima yanımda hiss edirəm. Hər dəfə süfrə açanda bir boşqab da ona qoyuram. Xəyalımda dərdimi yenə də onunla bölüşürəm..." Bu, şəhid kapitan İsmayıl Səmədovun həyat yoldaşı Bəsti xanımın etiraflarıdır.**

Qəhrəman zabitimizin fədakar xanımının ürəyindən gələnləri qələmə alansa dəyərli həmkarımız, mediada öz dəst-xətti olan Elman Malıyevdir. Elman Malıyev zəfərlə başa çatmış 44 günlük Vətən müharibəsinin şəhid kapitanı, Xüsusi Təyinatlı Qüvvələrin bölük komandiri, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin müzəffər Ali Baş Komandanı İlham Əliyevin sərəncamı ilə "Vətən Müharibəsi Qəhrəmanı" (ölümündən sonra) adına layiq görülmüş İsmayıl Məhəmməd oğlu Səmədovun şəhidliyə gedən qısa, lakin şərəfli ömür və döyüş yolundan yazıb. Şəhid Səmədov İsmayıl Məhəmməd oğlu 1990-cı ilin 9 avqust tarixində Zaqatala rayonunun Lahıc kəndində anadan olub. İsmayılın şəhidliklə sonlanan həyatı barədə "Zəfəri qanınla yazdın qəhrəman" adlı kitab bizə məlumat verir. Kitabda şəhidin ailə üzvlərinin, dostlarının, səngər qardaşlarının, eləcə də Zaqatala rayonu ziyalılarının xatirələri, fikirləri də toplanıb. İsmayıl Səmədovun hərbi xidməti və müharibə dövründə göstərdiyi qəhrəmanlıqlar döyüş yoldaşlarının danışdıqları əsasında qələmə alınıb. Kitaba "Ön söz"də müəllif yazır ki, "Yaşma" adı gələndə, hətta, ən güclü orduya malik dövlətlərin jurnalistləri də öz heyranlıqlarını gizlədə bilmirdilər. Bəli, onlar xüsusi təyinatlılarımızdı. Bir neçə xarici dil bilən, ölməyə yox, öldürməyə gedən igidlərdi. Ölüm onlar üçün ən son çarədi. İsmayıl Səmədov da onlardan biridir. "Kapitan İsmayıl Məhəmməd oğlu Səmədovun Vətən müharibəsində göstərdiyi qəhrəmanlıq hərbi olduğundan tam açıqlanmasa da, "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülməsi bölük komandirinin necə cəsur döyüşçü olmasından xəbər verir. İ.Səmədov Azərbaycan dövləti tərəfindən peşəkar zabit kimi yetişdirilib. Bunun üçün o, dünyanın bir çox ölkələrində "komando" kurslarına qatılıb. Keçdiyi hərbi sınaqlarda təkcə öz nüfuzuna deyil, həm də Azərbaycan Silahlı Qüvvələrinin nüfuzuna hörmət qazandırıb". Şəhid kapitanın döyüş yoldaşları onun haqqında dəyərli fikirlər səsləndirib, onu peşəkar zabit, əsl zabit keyfiyyətlərinə malik, fədakar, qayğıkeş komandir, əsgərlərin qardaşı adlandırıblar. Belə igid oğullardır Vətənin, xalqın başını uca edən. Vətən onların çiynində ucalır. Şəhidliyin mübarəkdir, cəsur kapitan!

Məlahət



# Paşinyan labirintə düşüb

## Ermənistan üzərində ABŞ və Rusiya rəqabəti regionda ümumi təhlükəsizliyə mənfi təsir edir

**ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin direktoru Uilyam Börnsün İrəvana səfərindən bir-iki gün sonra Rusiya Xarici Kəşfiyyat Xidmətinin rəhbəri Sergey Narışkin də Ermənistanın paytaxtına yollanıb. Rəsmi məlumata görə, iyulun 18-də Narışkini Ermənistanın Baş naziri Nikol Paşinyan qəbul edib.**

Onların beynəlxalq və regional təhlükəsizlik, habelə Cənubi Qafqazdakı vəziyyəti müzakirə etdikləri deyilir. Narışkinin İrəvanda Paşinyandan başqa daha kimlərlə görüşməsi barədə məlumat verilməyib. Rusiya Xarici Kəşfiyyat Xidmətinin rəsmi saytında da Narışkinin səfəri barədə məlumat yoxdur. Ekspertlərin diqqət çəkdiyi əsas məqam çox az hallarda xarici səfərlər edən Sergey Narışkinin amerikalı kəşfiyyat rəhbərinin səfərindən dərhal sonra İrəvana getməsidir. Börns ötən həftə Nikol Paşinyan və Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanla görüşmüşdü. ABŞ tərəfi də Uilyam Börnsün səfəri barədə heç bir açıqlama verməmişdi.

**Politoloq Məhəmməd Əsədullazadə "Şərq"ə bildirib ki, Ermənistana əvvəlcə Amerika, ardınca Rusiya baş kəşfiyyatçısının səfəri çox diqqətçəkən məsələdir. Analitik vurğulayıb ki, Ermənistanın Türkiyə ilə danışıqları və müəyyən dərəcədə əldə edilmiş nəticələr, həmçinin ABŞ biolabaratoriyalarının Rusiya tərəfindən bağlanması tələbi Vaşinqtonun Ermənistana diqqətini artırıb:**

"Ermənistan üzərində ABŞ və Rusiya rəqabəti regionda ümumi təhlükəsizliyə mənfi təsir edir. 30 ildir məhz Ermənistan amilinə görə regionda deastiblizasiya hökm sürür. Regionda sülhün əldə edilməsi Ermənistanın siyasi iradəsindən asılıdır. Məncə, ABŞ Mərkəzi Kəşfiyyat idarəsi sədrinin Ermənistan səfəri bir neçə amilə söykənir. Vaşinqton Ermənistanı Rusiyanın təsirindən çıxartmaq üçün ilk növbədə Türkiyə ilə əlaqələrin normallaşmasına dəstək verir. Lakin Türkiyə ilə normallaşma Paşinyan iqtidarına qarşı sui-qəsdin təşkil olunması ilə nəticələnə bilər. Görünür, Amerikanın baş kəşfiyyatçısı Rusiyadan gələ biləcək təhlükələri Paşinyanın diqqətinə çatdırıb. Ağ Ev Paşinyana təhlükəsizlik zəmanəti verə biləcəyini deyib. Ermənistan daxilində siyasi proseslərdə qeyri-müəyyənlik var. Müxalifət parlamenti boykot edir. Bu istiqamətdə Qərbin Paşinyana tam dəstəyi çox önəmlidir. Rusiya Xarici Kəşfiyyat İdarəsinin sədri isə ABŞ kəşfiyyat rəisinin səfərindən duyulan narahatlığı İrəvan hökumətinin diqqətinə çatdırmaq məqsədi ilə Ermənistana səfər edib".

İsmayıl

# "Məyusam, özü də çox"

## Əflatun Amaşov: "Media intihar mövzusu ilə bağlı həssaslığı nəzərə almaqdan hələ də uzaqdır"



**Medianın İnkişafı Agentliyi (MEDİA) açıqlama yayıb. Agentliyin bəyanatında qeyd olunub ki, son zamanlar bir sıra media subyektləri tərəfindən intihar halları ilə bağlı xəbərlərin geniş tirajlanması, xüsusən də yetkinlik yaşına çatmayan şəxslərin özünə qəsd etməsi ilə əlaqədar mövzularda yol verilən qüsurlar cəmiyyətdə narahatlıq yaradıb. Həm də haqlı olaraq ictimai narazılığa səbəb olub.**

O baxımdan MEDİA xüsusi olaraq vurğulayıb ki, Audiovizual Şura və Medianın İnkişafı Agentliyi tərəfindən bu ilin aprel ayında ölkənin bütün media subyektlərinə tövsiyə olunmuş "Redaksiya siyasəti və peşə etikası qaydaları"nda qeyd olunduğu kimi intihar cəhdlə bağlı xəbərlərin təsviri təqlid hissi oyatmamalıdır: "İntiharın üsulunu və hadisənin detallarını açıqlamaq, başlığa çıxarmaq, mübaliğəyə yol vermək arzuolunan deyil, eyni zamanda jurnalist peşəkarlığının göstəricisi hesab edilə bilməz. Zorakılıq, intihar və s. bu kimi insanların sağlamlığına və təhlükəsizliyinə dair mənfi təzahürlərlə bağlı məlumatlar adekvat tərzdə işıqlandırılmalı, onların təbliğinə və təsir gücünün artırılmasına yol verilməməlidir. Eyni zamanda əhalinin həssas qruplarına, uşaqların, yetkinlik yaşına çatmayanların fiziki, əqli və mənəvi inkişafına ziyan vuran məlumat, o cümlədən təsvirlərdən istifadə olunmamalıdır. Xatırlatmağı zəruri hesab edirik ki, uşaqlara münasibətdə "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş tələblərə birmənalı şəkildə əməl edilməlidir. Unutmaq olmaz ki, peşəkar media ictimai əhəmiyyətli informasiyalarla cəmiyyəti məlumatlandırmaq kimi şərəfli və məsuliyyətli missiyanı yerinə yetirir. İntihar halları və bu qəbildən olan digər təzahürlərlə bağlı materialları işıqlandırarkən medianı ictimaiyyət qarşısındakı məsuliyyətinə diqqətlə yanaşmağa və peşəkar həssaslıq nümayiş etdirməyə çağırırıq".

**Mətbuat Şurasının sədri Əflatun Amaşov da Agentliyin intihar xəbərlərinin tirajlanması ilə bağlı açıqlamasına münasibət bildirib:** "Nə qədər demək olar ki, intihar halları cəmiyyətə təqdim edilərkən mütləq qaydada konkret hadisənin ictimai motivinin olub-olmadığı araşdırılmalıdır? Tam mümkündür ki, kiminsə intiharı cəmiyyətin maraq və mənafelərindən irəli gələn problemlə əlaqədar olub. Ola bilər ki, intihar hansısa vəzifəli şəxsin səlahiyyətlərindən sui-istifadəsinin məntiqi sonluğu kimi meydana çıxsın. Yaxud da intihar faktının araşdırılması cəmiyyətin tamamilə yanlış yönləndirildiyi reallığını ortaya qoysun. Media bütün bunlara öncədən diqqət yetirilməli və vurğu da intiharın özü yox, həmin motivin üzərinə qoyulmalıdır. Yəni jurnalistikanın işi bu olmalıdır. Bizdə isə məsələyə tam fərqli münasibət göstərilir. Əvvəl intiharın özü mümkün qədər səs-küylü boyalarla təqdim olunur, sonra daha çox telekanalların timsalında hadisəyə guya ictimailik gətirilir. Əslində isə tam əksər hallara məişət müstəvisindəki olay cəmiyyətə ictimai mahiyyət daşıyan məsələ kimi sırıdılır. Nəticə etibarilə özünə qəsd bir növ təbliğ olunur, ona maraq oyadılır. Elə təəssürat yaranır ki, insanın düşdüyü çətin durumdan xilasının yeganə yolu elə odur. Belə çıxır ki, media intiharların sayının artmasına çalışır".

*Ə.Amaşov bəyan edib ki, ümumən intiharlar və media mövzusu illərdir müzakirə olunur. Hər dəfə də bildirilir ki, intihar halları tarixin bütün dövrlərində olub:* "Yaxşı yadımdadır, yazılarımın birində qədim antik mədəniyyəti xalqlarının intiharlara qarşı həyata keçirdikləri sərt tədbirlərdən söz açmışdım. Həmçinin müasir dövrümüzdə intiharların ən çox Skandinaviya ölkələrində yer aldığını bildirmişdim. O ölkələrdə ki, onlarda həyat şəraiti kifayət qədər yüksəkdir. Yəni bütün bunları diqqətə çatdırmaq intiharların ictimai, psixoloji, mənəvi və sosial motivlərinə həssas yanaşmaq ehtiyacının əslində zərurət olduğunu vurğulamaq məqsədi daşımışdı. Amma görünən budur ki, media bu həssaslığı nəzərə almaqdan hələ də uzaqdır. Bəli, son dövrlər kütləvi informasiya vasitələrində intihar hallarının yayılmasında dinamiklik hiss olunur. Bu mənzərə isə illərdir söylədiklərimizin müəyyən mənada puça çevrildiyini göstərir. Məyusam, özü də çox. Axı, tez-tez deyirik ki, media zövqlü auditoriya, tamaşaçı baxışı yaradır, ictimai rəyi yönləndirir. Ancaq müşahidə edirik ki, medianın formalaşdırdığı auditoriya nəyin ictimai əhəmiyyət daşıdığını anlamayacaq dərəcədə kordur. Baxın, televiziyada veriliş gedir, ölkədə az-çox tanınan adamlar yığılıblar. Auditoriya onları nüfuz sahibi kimi tanıyır, qəbul edir və bu adamlar ilk baxışdan heç bir məzmunu olmayan hadisəni müakirəyə çıxarırlar, fikir bildirirlər. Hərdən əsəbiləşib özlərindən çıxırlar. Sizcə, mövcud durumda media necə bir tamaşaçı formalaşdırdı? Ad tapa bilmirəm. Amma təkrarlayım ki, o tamaşaçı intiharı sıradan məsələ kimi qəbul edəcək və adi bir çətinlikdən çıxış yolunu onda görəcək. Bu, kimə lazımdır?".

MŞ rəhbəri vurğulayıb ki, dövlət qurumlarının cəmiyyətə məlumat verilməsinə məsul struktur bölmələri də neqativ məsələlərə informasiya dəyəri qazandıraraq onu mediaya çatdırmaqdan uzaq dayanmalıdır: "Hansısa hadisənin ictimailik dərəcəsini, onun insanlara ziyanını əvvəlcə informasiya mənbələri düşünməlidirlər. Bu kimi məsələlərdə jurnalistlərlə onlar arasında bir növ konsensus olmalıdır. Mümkündür ki, hər iki tərəf konkret məsələ ətrafında müzakirə apararaq onun cəmiyyətə çatdırılmasının nə dərəcədə mümkün olub-olmadığını dəqiqləşdirsin. Başqa sözlə, elə bir iş mühiti yaransın ki, informasiya mənbəyinin konkret hadisə barədə təfərrüatları cəmiyyətə çatdırmaq istəməməsi media tərəfindən məlumat verməkdən boyun qaçırmaq kimi dəyərləndirilməsin. Media cəmiyyətdə konfrantasiyaların dərinləşməsində maraqlı tərəf kimi çıxış etməməlidir. Yaranmış hər hansı gərginliyin aradan qaldırılması üçün ortaq məxrəc tapmalıdır, uzlaşdırıcı mövqe tutmalıdır. Təbii ki, bunu problemlərə soyuq yanaşmaqla həyata keçirməlidir, emosiyalara qapılmamalıdır. Təəssüf ki, bu sadaladıqlarım böyük ölçüdə nəzərə çarpmır. Jurnalistin silahı sözdür. O, güldürəndə də, ağladanda da, düşüncələrə qərq edəndə də, hətta hönkürtüyə salanda, qəhərə boğanda da bunu sözlə etməlidir. Bəli, peşəkarlıq, peşəkarlıq və yenə də peşəkarlıq".

İsmayıl Qocayev

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

### Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi



# Gənclərimiz şanlı tariximizin canlı şahidləri ilə görüşür

## Yay düşərgələri gələcəyə hesablanmış, bəlli hədəfləri olan layihədir

**Azərbaycan dövlət siyasətində gənclərlə iş xüsusi yer tutur. Azərbaycan gənclərinin ölkənin ictimai-siyasi, iqtisadi və mədəni həyatında fəal iştirakı, sosial problemlərinin həlli və hüquqlarının müdafiəsinin təmin edilməsi, gənclər siyasətinin bütün istiqamətləri üzrə səmərəli həyata keçirilməsi, gənc istedadlara dövlət qayğısının artırılması, elm, təhsil, iqtisadiyyat, mədəniyyət, dövlət idarəçiliyi və digər sahələrdə gənclərin xidmətlərinin qiymətləndirilməsi məqsədilə indiyədək bir neçə dövlət proqramları hazırlanaraq icra olunub.**

Və əlbəttə ki, gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi də dövlət proqramlarının önəmli hissəsini təşkil edib. Təsadüfi deyil ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Gənclər Gününün təsis edilməsinin 25 illiyinə həsr olunmuş Forumda çıxışı zamanı gənclərimizin milli ruhda, vətənpərvər ruhda tərbiyəsindən danışdı, 44 günlük Vətən müharibəsinin qələbə ilə sonlanmasında milli, vətənpərvər ruhlu gənclərin əzmkarlığını, fədakarlığını, qəhrəmanlığını xüsusi vurğuladı və qeyd etdi ki, gənclər böyüməkdə olan nəslə nümunə olmalıdırlar: "Gənclərin isə, yenə də deyirəm, bu sahədə rolu böyükdür. Bu gün bizim qəhrəman gənclərimiz - dövlət tərəfindən yüksək orden, medallarla təltif edilmiş gənclərimiz gənc yaşlarında uşaqlar üçün nümunə olublar, 18, 20, 25, 30, 35 yaşında nümunə olublar. Onlar bu məsuliyyəti dərk edirlər və həyatda özlərini elə aparmalıdırlar ki, bu yüksək məsuliyyət daim onların üzərində olsun, uşaqlar, yeniyetmələr onlara baxıb, onlar kimi olmaq istəsinlər. Müharibədə iştirak etmiş və qəhrəmanlıq göstərmiş on minlərlə Azərbaycan gəncinin üzərinə indi bax, bu məsuliyyət düşür və əminəm ki, gənclər bunu dərk edir və öz əməlləri ilə yeni yetişən nəsil üçün də nümunə olacaqlar". Gənclərin milli-vətənpərvərlik ruhunda tərbiyəsinə indiyədək həyata keçirilmiş proqram və layihələrin əhəmiyyəti böyükdür. 44 günlük Vətən müharibəsindəki şanlı qələbədən sonra bu tip layihələrin sayı daha da artıb. Bu isə onu göstərir ki, Azərbaycan dövləti əldə edilmiş nəticələrlə kifayətlənmək fikrində deyil, gənclər siyasəti daim prioritet olacaq. Gənclər siyasətində yay düşərgələrinin də rolu böyükdür. Bu günlərdə ölkənin ən böyük gənclər düşərgəsi "Yay Fest 2022" işə başlayıb. Bununla bağlı verilən məlumatda qeyd edilir ki, düşərgədə iştirak üçün 5 mindən çox gənc müraciət edib. İştirakçıların seçimləri, onlarla həm onlayn, həm də əyani görüşlər, müsahibələr mərhələli şəkildə aparılır. Yay Festivalı 19 iyul - 9 sentyabr tarixlərini əhatə edəcək. Festival çərçivəsində mərhələli şəkildə fərqli mövzular (tələbəlik, vətənpərvərlik, yaradıcılıq, könüllülük, dayanıqlı inkişaf məqsədləri, innovasiya və sahibkarlıq, karyera və inkişaf, həmrəylik) üzrə 8 düşərgə təşkil olunacaq. Gənclərin düşərgəyə böyük marağını nəzərə alan təşkilatçılar son dörd düşərgə üçün qeydiyyat müddətini avqustun 1-nə kimi uzadıb. Nəsrəddin Tusi adına Şamaxı Astrofizika Rəsədxanasında keçiriləcək "Yay Fest 2022"-də 2 min gənc iştirak edərək əylənəcək, öyrənəcək və yeni dostlar qazanacaqlar. Artıq ənənə halını almış və 3-cü ildir ki, təşkil edilən festivalda iştirak etmək istəyən gənclər http://yayfest.az/ veb-səhifəsi və ya GəncApp mobil tətbiqi vasitəsi ilə qeydiyyatdan keçə bilər. Çadır tipli düşərgə zamanı gənclərin asudə vaxtlarını səmərəli keçirmələri üçün açıq havada dövlət qurumları və özəl şirkətlərin nümayəndələrinin iştirakı ilə panel müzakirələr, həvəskar idman yarışları, əyləncəli, intellektual oyunlar, peşəkar təlimlər, konsert proqramı, Şamaxının tarixi və mədəni abidələrinə ziyarətlər təşkil olunacaq, Vətən müharibəsi qaziləri ilə görüşlər keçiriləcək və Festival ərazisində xüsusi innovasiya guşəsi yaradılacaqdır. Düşərgələrdə fəal olan gənclər mükafatlandırılacaq və beynəlxalq tədbirlərdə iştirak etmək imkanı əldə edəcəklər. Festivalın məqsədi dövlət gənclər siyasətinə uyğun olaraq gənclər üçün müxtəlif sahələrdə yaradılan geniş imkanların təşviqi, gənc nəslin vətənpərvər ruhda, milli-mənəvi dəyərlərə bağlı və müasir dövrün çağırışlarına uyğun yetişməsi, Azərbaycan tarixi, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında Şanlı Ordumuzun Vətən müharibəsində qazandığı zəfərin geniş təbliği, ölkəmizin müxtəlif regionlarında yaşayan gənclərin sosiallaşması, onların müasir peşə və trendlər barədə məlumatlandırılmasından ibarətdir. Seçimlər zamanı 18-24 yaş arası yaradıcı, ictimai fəallığı ilə seçilən gənclərə üstünlük veriləcək.

**"Yay Fest-2022" Gənclər Düşərgəsi ilə bağlı fikirlərini "Şərq"lə bölüşən sosioloq Lalə Mehralı qeyd etdi ki, bu cür layihələr gənclərin formalaşmasında mühüm əhəmiyyət kəsb edir:**

- Düşərgənin proqramına baxdıqda məlum olur ki, məqsəd sadəcə dincəlmək, istirahət etmək deyil, məhz mənalı, gələcəyə hesablanmış, bəlli hədəfləri olan layihədir. Diqqətimi çəkən düşərgə iştirakçılarının şəhid ailələri, qazilər, müharibə iştirakçıları ilə görüşlərinin təşkil ediləcəyi oldu. Bu, çox yaxşıdır. Gənclərimizin şanlı tariximizin canlı şahidləri ilə görüşməsi, ünsiyyətdə olması, vətənpərvərlik hisslərinin tərbiyəsində böyük əhəmiyyət daşıyır. Biz niyə hər zaman deyirik ki, uşaqlar, məktəblilər Şəhidlər Xiyabanlarını ziyarət etməlidir. İstər paytaxtda, istərsə də bölgələrdə. Azərbaycanımızın hər qarışı qəhrəmanlıq dastanları ilə zəngindir, torpağımızın hər qarışında qəhrəman övladlarımız uyuyur. Onların məzarlarını ziyarət etmək, şəhid ailələri ilə görüşmək insana tükənməz qürur hissi yaşadır. Bu hiss gənclərimizin milli-vətənpərvərlik ruhunun daha da möhkəmlənməsinə xidmət edir. Cənab Prezident İlham Əliyev Gənclər Forumunda çıxışı zamanı qeyd etdi ki, fəaliyyəti dövründə gənclərin tərbiyə olunması ilə bağlı daha çox işlər görülməsinə çalışıb. Və Vətən uğrunda, torpaq uğrunda qabağa gedənlərin əksəriyyətinin gənclər olması ilə fəxr etdiyini söylədi. Prezident dedi ki, "bu, hər birimiz üçün qürur mənbəyidir. Çünki elə bir gənc nəsil yetişdi ki, hətta Qarabağı görməyən, o acı tarixi görməyən gənclər Qarabağ uğrunda, Vətən uğrunda, milli ləyaqət uğrunda ölümə gedirdilər və şəhid oldular, qazi oldular və müzəffər Ordumuzun şöhrətini yüksəklərə qaldırdılar. Əgər bu siyasət olmasaydı, əgər gənclər vətənpərvərlik ruhunda tərbiyə almasaydılar, bilmək olmazdı müharibənin nəticələri necə ola bilərdi". Müharibə bitibsə də, ölkəmizi sevməyənlər, uğurlarımıza sevinməyənlərin olduğunu hamımız bilirik. Heç bir siyasətdə, eləcə də gənclər siyasətində boşluğa yol vermək olmaz. Gənclərlə iş daimi olmaq üzrə, məqsədyönlü şəkildə aparılmalıdır. Əsas da əlbəttə ki, gənclərin milli ruhda, vətənpərvər ruhda yetişməsinin təmin edilməsidir.

**Məlahət Rzayeva**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**



# Abituriyentlərin peşə seçiminə azadlıq verilməlidir

## Kamran Əsədov: "Gələcəyin ehtiyac duyulası ixtisaslarından biri də Nanotexnologiyadır"

**Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə abituriyentlərə ixtisas seçimində diqqətli olmağı tövsiyə edib. Diqqətli deyərkən, topladığı bala uyğunluq, dövlət sifarişli və ya ödənişli təhsil nəzərdə tutulmur. Bunların öz yeri var, amma M.Abbaszadənin əsas hədəfi abituriyentlərin gələcəyə hesablanan ixtisaslara yiyələnməsidir.**

Düzgün ixtisas seçimi dedikdə, DİM Direktorlar Şurasının sədri məhz bunu nəzərdə tutub. "Yüksəliş" müsabiqəsinin final mərhələsində "Müasir çağırışlar və insan kapitalının formalaşması" mövzusunda çıxışı zamanı belə də deyib: "Bir ixtisası ömürlük seçmək artıq mümkün deyil. Mühasib işi 5 ildən sonra lazım olmaya bilər. Bu gün mühasibatlıq sahəsində icra olunan proqramlar onu əvəz edir. Bundan sonra hər hansı alətlərlə işləməyi bacaran maliyyəçilər lazım olacaq. İxtisas seçimi deyil, fəaliyyət istiqaməti əsas amildir". Gərək M.Abbaszadə bir çox hallarda valideynlərin övladlarının ixtisas, peşə seçiminə kobud müdaxiləsini də qeyd edəydi. Nə edəsən ki, Azərbaycan insanının təfəkküründə ən yaxşı peşə hələ də həkimlik və hakimlikdir. Baxmayın, son illərdə iqtisadiyyata da maraq artıb. Həkim-hakim hələ də ağır gəlir. Heç olmasa, abituriyentlər M.Abbaszadənin çağırışına qulaq versin. Hər halda xeyir taparlar.

Bəs qəbul imtahanlarını uğurla başa vurmuş abituriyentlər hansı ixtisaslara üstünlük versə, gələcəkdə nəinki işsiz qalmayacaq, üstəlik onları "əldə çıraq" axtaracaqlar?

Bu barədə təhsil eksperti, fəlsəfə doktoru Kamran Əsədov "Şərq"ə danışdı:

- Artıq qəbul imtahanlarının bir mərhələsi başa çatıb, abituriyentlər ilkin balları ilə məlumatlıdırlar. Daha ciddi bir mərhələ bundan sonra başlayır. İmtahanda iştirak edib müsabiqədə iştirak etmək hüququ qazanmış abituriyentlərin qarşısında öz ixtisas seçiminə bir daha nəzər salmaq, seçimini dəqiqləşdirmək və təsdiqləmək (rəsmiləşdirmək) vəzifəsi durur. Bu məqamda düzgün, ağıllı qərar qəbul etmək, öz istəyi ilə bərabər mövcud müsabiqə vəziyyətinin reallıqlarını - ixtisaslar üzrə plan yerlərini, müsabiqədə iştirak edən abituriyentlərin imtahan nəticələrinin bal intervalları üzrə paylanmasını, öz fərdi imtahan göstəricilərinin bu sıralamadakı yerini, həmçinin ötən illərin tələbə qəbulu müsabiqəsində ayrı-ayrı ixtisaslar üzrə formalaşmış keçid ballarını nəzərə almaq seçimin uğurlu olmasına müsbət təsir göstərə bilər.

**K.Əsədov bildirdi ki, pandemiya dövründə əmək bazarında yeni ixtisaslara ehtiyac yaranıb:**

- 2021-ci ildə bütün idarəetmənin onlayn rejimə keçməsi gələcəkdə bu istiqamdə ixtisaslara daha çox ehtiyacın olacağını qaçılmaz edir. Pandemiya və vövqəladə vəziyyətlərdə insanlar evdə qalırlar. Bu dövrdə onlar həm işlərini görmək, həm də asudə vaxtlarını keçirmək üçün kompüter və onunla oyunlara daha çox vaxt ayırırlar ki, gələcəkdə də ehtiyac olunan ixtisaslardan biri kompüter oyunu dizaynı ixtisasıdır. Dövrümüzdə oyun dizaynı tələbələri 2010-cu ildə 55.5 milyard dollardan 2021-ci ildə 92.4 milyard dollara çatması gözlənilən bir sektora qatılır. "Becker College" qonşusu "Worcester Polytechnic Institute" ilə birlikdə gələcəyin oyun dizaynerləri üçün ən məşhur bir ünvan vəziyyətindədirlər. Digərləri isə "DePaul University", "Michigan State University" və "Rochester Institute of Technology"dir. DePaulun Proqramlaşdırma və Rəqəmsal Media bölümü dekan köməkçisi Lucia Dettori "Bu vəziyyət xilasedici, əsgər və təşkilati işçiləri öyrətmə tərzimizi, alver şəklimizi və məhsulların bizə təqdim edilmə formasına da təsir edir," deyir. Bu hissənin məzunları oyun istehsalı, inkişaf etdirməsi, dizaynı, sənəti, proqramlaşdırması, kompüter qrafikləri və insan-kompüter qarşılıqlı əlaqəsi sahələrində çalışır. Eyni zamanda oyun studiyalarında və memarlıqda, tibdə, hüquqda və interaktiv simulyasiyası istifadə edildiyi digər sektorlarda da işləyə bilirlər. Həmçinin pandemiya dövrü Səhiyyə informasiyası və ya İnformasiya rəhbərliyi ixtisasına zəruri tələbatın olduğunu göstərdi.

**Ekspertin fikrincə, enerji, su, yemək və iqlimin əsrin problemlərini meydana gətirdiyi dövrümüzdə ekoloji işlər sahəsindəki proqramlar gedərək yayılır:**

- Məsələn, "University of Wisconsin-Madison"dakı tələbələr artıq ya ekoloji araşdırmalar ya da ətraf elmləri sahələrində təhsil alır. Ekoloji işlər tələbələrin sağlamlıq, qida və kənd təsərrüfatı, enerji, bio-müxtəliflik, iqlim, tarix və mədəniyyət, torpaq istifadəsi və siyasət dərsləri arasından seçim etməsini tələb edən fənlərarası bir dərəcədir. Yüksək təhsildə Davamlılığın İnkişaf etdirilməsi Dərnəyinə görə ekoloji işlərlə əlaqədar sahələrdən olan və bioloji sistemlərin müxtəlifliyini və məhsuldarlığını davam etdirməyə yönəlmiş davamlılıq sahəsində (aralarında Arizona State University, Pennsylvania State University, University of Kentucky və University of Oklahomanın da olduğu) 35-ə qədər ABŞ universiteti bakalavr dərəcəsi təklif edir. Pandemiya dövründə bütün xidmətlərin onlayn formada həyata keçirilməsi İnformasiya təhlükəsizliyi və ya virtual təhlükəsizlik ixtisasına tələbatı zəruri edir. ABŞ Milli Təhlükəsizlik Təşkilatı köhnə informasiya təhlükəsizliyi texniki direktoru Dickie Corc virtual təhlükəsizlik və ya informasiya təhlükəsizliyi mövzularında iş tələbinin "son on ildə 10 qat artdığını" ifadə edir. Milli Təhlükəsizlik Təşkilatı Daxili Təhlükəsizlik hissəsiylə birlikdə İnformasiya təhlükəsizliyinə Akademik Mükəmməliyyət Milli Mərkəzlərini dəstəkləyərək bu mərkəz vasitəsilə tələbələrə ölkənin informasiya infrastrukturundakı zəiflikləri təyin etmə və təmir etməyi öyrətmək üçün lazımlı standartları qarşılayan məktəbləri müəyyənləşdirir. "Mississippi State University", "University of Tulsa", "Dartmouth College" və "Carnegie Mellon University" bakalavr proqramı təqdim edən 166 təşkilatın arasında iştirak edən müvəffəqiyyət mərkəzləridir. İnformasiya təhlükəsizliyi tələbələri kompüter sistemlərini, şəbəkələri və fərdi kompüterləri viruslardan, kompüter piratlarından, terror hədələrindən və təşkilati casusluqlardan qorumaq üçün lazımlı olan texniki mövzuları öyrənər. Tələbələr fərqli müəssisə modellərini, gizlilik və təhlükəsizlik protokollarını öyrənmək üçün E-ticarət dərslərinin yanında kompüter cinayətləri və məhkəmə informasiya dərsləri də ala bilməkdədir. Tələbələr eyni zamanda müasir informasiya sistemlərini planlamağı, analiz etməyi, dizayn və tətbiqi də öyrənir.

*K.Əsədovun fikrincə, gələcəyin ehtiyac duyulası ixtisaslarından biri də Nanotexnologiyadır:*

- Bu yeni elm budağı bir metrin milyardda birindən başlayan mikroskopik dünyada maddələrdə ortaya çıxan fiziki, kimyəvi və bioloji xüsusiyyətlərdən bəhs edir. Nano vəsaitlər hazırda qolf dəyənəklərinin, xizək vəsaitlərinin, avtomobil parçalarının və dental implantların gücləndirilməsinə köməkçi kimi istifadə edilməkdədir və gələcəyin bina və körpülərinin daha yüngül və möhkəm olmasına köməkçi olmaları gözlənilir. Nanotexnologiya əsaslı dərmanlar toksik dərmanları birbaşa şişlərə göndərməyi vəd etməkdə və bu texnologiya daha enerji qənaətli yanacaq hüceyrələrinin, günəş panellərinin, batareyaların hazırlanmasında və ətraf təmizliyində əsas rol oynaya biləcək mövqedədir. Bu sektorun 2015-ci ilə qədər qlobal miqyasda 2.4 trilyon dollarlıq bir böyüməyə çatması və 2023-ci ilə qədər də 2 milyon insana məşğulluq təmin etməsi gözlənilir. "University at Albany-SUNY" ölkənin ilk nanotexnologiya magistratura proqramını 2004-cü ildə başladıb və 2010-ci ildə isə iki bakalavr dərəcəsi açıb. Bu dərəcələr tələbələri magistraturaya, nano əsaslı sektorlara və ya əsas araşdırmalara; fiziki elmlər, vəsait elmi, fizika, biofizika, kimya və ya biokimya sahələrindəki işlərə hazırlamaqdadır. Oxşar ixtisaslar açan məktəblər arasında "Drexel University", "Louisiana Tech University" və "University of Central Florida" iştirak etməkdədir. Abituriyentlər önündə xeyli fərqli imkanlar var. Odur ki, abituriyentlərimizə doğru seçim etmələrini məsləhət görürük.

**Məlahət Rzayeva**

# Ali məktəblərdən başlamaq lazımdır

## Müəllimləri imtahan yolu ilə seçmək heç vaxt uğur gətirməyəcək



***"İndi məktəbli üçün bir dənə olsun elmi-populyar jurnal yoxdur. Yalnız orta məktəb dərsliyi ilə uşaqlardakı istedadı dərinləşdirmək mümkün deyil"***

**"Təhsilin əsas siması müəllimdir. Ali məktəblər savadlı müəllim hazırlaya bilmirsə, buna imtahan yolu ilə nail ola bilmərik". Bu sözləri millət vəkili, təhsil eksperti Etibar Əliyev deyib.**

Deputat bildirib ki, indiyə qədər müəllim hazırlayan ali məktəblərin nüfuzu və reytinqi o qədər yüksək olmalı idi ki, onların məzunları imtahansız işə qəbul olunmalıydılar: "Müstəqilliyimizdən 31 il ötür. Hələ də bu yolda axsayırıq. Müəllimlərin primitiv formada keçirilən imtahan yolu ilə işə qəbul olunmaları onların qarşısında hansı məsuliyyəti qoyur? Bu imtahanları təşkil edənlərin özlərinin imtahandan keçməsinə ehtiyac var. Müəllimlərin əksəriyyəti sinifdə biliyi ətalətli və bitmiş şəkildə verməyə çalışırlar. Çünki ona dərs deyən müəllimlər də belə ediblər. Onu imtahan edənlər isə bu işi qeyri-ciddi formaya salıblar. Müəllim 45 dəqiqənin kiçik bir hissəsində faktları sadalayır, bildiyi metodların adını çəkir. Uşaqlar təkrarlayır və bununla iş bitmiş hesab olunur. Başqa qisim müəllimlər isə bilik adı altında tədqiqat aparmağa üstünlük verirlər, uşaqlardakı istedad nişanələrini oyadırlar. Təəssüflər olsun ki, bizdə birinci tip müəllimlər daha çoxdur. Bilmək - problemi tədqiq etmək, onu savadlı və aydın şəkildə aşkara çıxarmaq, materialı interperetasiya etmək və gəlinən nəticəni ciddi-cəhdlə müdafiə etmək bacarığıdır. Müəllimin biliyi şərh etməsi nə qədər məhdud və mexanikidirsə, onunla şagird arasında primitiv münasibət yaranır".

Parlament təmsilçisi vurğulayıb ki, müəllim sadəcə test tapşırıqlarının cavabının tapılmasını uşaqlara öyrətməməlidir: "Tədris proqramlarının uğuru bu ideyaya köklənməlidir: - öyrətmə prosesi təsadüfi xarakter daşımasın. Tanınmış pedaqoqlardan biri haqlı olaraq tədris proqramını "sehirli baxça" adlandırır. Biz səhih və dəqiq bilik əldə etmək üçün onun konkret yollarını aramalıyıq. Müəllim tədris etdiyi fəndəki yenilikləri izləməlidir. Vaxtilə fənlər üzrə maraqlı elmi jurnallar dərc olunurdu. Hətta ucqar kəndlərə belə göndərirdilər. Yayda da oxuyurduq. İndi məktəbli üçün bir dənə olsun elmi-populyar jurnal yoxdur. Yalnız orta məktəb dərsliyi ilə uşaqlardakı istedadı dərinləşdirmək mümkün deyil. Elm sahələrində böyük alimlərin ideyaları məktəblilərə və tələbələrə çatdırılmalıdır. Bioqrafiyaları ilə tanış olduğum bir neçə Nobel mükafatı laureatı orta məktəblərdə dərs deyiblər. Rektorların açıq mühazirələrinə rast gəlmisinizmi? Bizim akademiklərin məktəblə əlaqələri varmı?".

**İsmayıl**

# "İntiharlarla bağlı xəbərlər azalsa yaxşıdır"

## Jurnalistlərin qoyduqları başlıqlar həssas insanlara ciddi təsir edir



**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi açıqlama yayıb. Xəbərdə deyilir:**

**- Son zamanlar bir sıra media subyektləri tərəfindən intihar halları ilə bağlı xəbərlərin geniş tirajlanması, xüsusən də yetkinlik yaşına çatmayan şəxslərin özünə qəsd etməsi ilə əlaqədar mövzuları işləyərkən jurnalist peşəkarlığı baxımından yol verilən qüsurlar cəmiyyətdə narahatlıq yaratmaqla, haqlı olaraq ictimai narazılığa səbəb olur.**

Xüsusi vurğulamaq istərdik ki, Azərbaycan Respublikasının Audiovizual Şurası və Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi tərəfindən bu ilin aprel ayında ölkənin bütün media subyektlərinə tövsiyə olunmuş "Redaksiya siyasəti və peşə etikası qaydaları"nda qeyd olunduğu kimi intihara cəhdlə bağlı xəbərlərin təsviri təqlid hissi oyatmamalıdır. İntiharın üsulunu və hadisənin detallarını açıqlamaq, başlığa çıxarmaq, mübaliğəyə yol vermək arzuolunan deyil, eyni zamanda jurnalist peşəkarlığının göstəricisi hesab edilə bilməz.

Zorakılıq, intihar və s. bu kimi insanların sağlamlığına və təhlükəsizliyinə dair mənfi təzahürlərlə bağlı məlumatlar adekvat tərzdə işıqlandırılmalı, onların təbliğinə və təsir gücünün artırılmasına yol verilməməlidir.

Eyni zamanda əhalinin həssas qruplarına, uşaqların, yetkinlik yaşına çatmayanların fiziki, əqli və mənəvi inkişafına ziyan vuran məlumat, o cümlədən təsvirlərdən istifadə olunmamalıdır. Xatırlatmağı zəruri hesab edirik ki, uşaqlara münasibətdə "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş tələblərə birmənalı şəkildə əməl edilməlidir.

Unutmaq olmaz ki, peşəkar media ictimai əhəmiyyətli informasiyalarla cəmiyyəti məlumatlandırmaq kimi şərəfli və məsuliyyətli missiyanı yerinə yetirir. İntihar halları və bu qəbildən olan digər təzahürlərlə bağlı materialları işıqlandırarkən medianı ictimaiyyət qarşısındakı məsuliyyətinə diqqətlə yanaşmağa və peşəkar həssaslıq nümayiş etdirməyə çağırırıq.

**Psixoloq Fərqanə Mehmanqızı "Şərq" açıqlamasında bildirib ki, intiharlarla bağlı yazılar, xəbərlər mətbuatda, sosial şəbəkələrdə nə qədər azalsa, bir o qədər yaxşıdır:** "Psixoloji həssas, təlqinə meyilli insanlar müəyyən psixoloji duruma məruz qaldıqları zaman internetdəki informasiyalar çıxış yolunu açıq şəkildə intihar etməkdə görür.

Hər zaman canına qıyan şəxs yox, onun ətrafındakı insanlar günah obyektinə çevrilir. Rəylərdə ictimaiyyətin fikirləri, jurnalistlərin qoyduğu başlıqlar onları intihara sövq edir.

Bu gün insanlarda o qədər beyin tənbəlliyi yaranıb ki, müəyyən problemin həllini ən asan variant kimi gördükləri intiharlara bağlayırlar. Əgər bir qızın canına qəsd etməsinə səbəb erkən nikahdırsa, o, bu gün də var və gələcəkdə də olacaq. İnsanlar hazırda mənəvi cəhətdən acdırlar.

Daxili aqressiyadan əziyyət çəkirlər. Ona görə də intihar hadisələrinin ictimaiyyətə çatdırılması bir az qapalı saxlanılmalıdır. Belə olarsa, hadisələrin müəyyən qədər qarşısını almış olarıq. Məsələn, müharibədən sonra Yaponiyada intiharlar artdı, səbəb də hadisələrin xəbərlərdə verilməsi idi.

Media rəhbərliyi artıq intiharlarla bağlı heç bir mövzunun bundan sonra işlənməyəcəyini bildirdikdən sonra say aşağı endi. Düşünürəm ki, bizim mediada da özünü öldürən şəxslərlə bağlı informasiyalara çox yer verilir.

Doğrudur, Şərq ölkəsi olduğumuz üçün faciəvi, ağlaşmalı xəbərləri daha çox oxuyuruq. Hər hansı erkən nikahla əlaqəli intihar cəhdinin səbəbi kimi araşdırılınca ailənin psixoloji, maddi durumu təhlil edilməlidir. Yaxşı olardı ki, jurnalistlər intihar etmiş ailəni danışdırıb, o mühiti öyrənsinlər. Kənardan mühakimə etmək olmaz.

Əgər savadlı, ali təhsilli bir insan erkən nikaha daxil olan şəxsi qınasa, bu, onun peşəkar olmadığını göstərər. Çünki mühit, adət elədir".

**Sücayət Mehti**

## "Məni yuxunda görmüsən"

**Sözləri Azərbaycanın Xalq şairi Vahid Əzizə məxsus, bəstəkarı Könül Hüseynovaya aid olan "Məni yuxunda görmüsən" klipinin çəkilişinə başlanılıb.**

Klipin çəkilişləri Azərbaycanın gözəl təbiətini özündə əks etdirən mənzərəli yerlərdə çəkilir. Bakının Nəbatət bağında olarkən klipin yaradıcı heyəti ilə görüşdük. Klipin sözlərinə möhtəşəm musiqi bəstələnib. Musiqi ilə sözlər vəhdət təşkil edir. Musiqinin sözlərini ölməz şəhidimizin dilindən əvəzsiz ifası ilə yaddaşlarda özünə əbədi yer tutan Xalq artisti Samir Cəfərov səsləndirib. Klipin ilk versiyasını dinlədikdən sonra belə bir düşüncəyə gəlmək olur ki, bu iş birliyində iştirak edən və yayın qızmarında can qoyan insanlar ilk növbədə milli ruhun daşıyıcılarıdır. Görkəmli şair Vahid Əzizin sözlərinə bəstələnən bu musiqi əsəri inanırıq ki, insanları seyr və sehrin orbitindən çıxarıb, haqq-ədalətin, şəhidlik zirvəsinin əbədi ruhun məkanına çağıracaq.

Böyük sənət əsəri Suqovuşanda qəhrəmanlıqla şəhid olan şəhidlərimizin əbədi xatirəsinə ithaf olunur.

**Vəli SƏMƏDLİ,**
**AJB-nin üzvü**

## "Nar" ən yüksək nəticə göstərən abituriyentləri mükafatlandıracaq

**"Nar" dövlət qəbul imtahanlarında ümumi qruplar üzrə ən yüksək nəticə toplayan ilk 10 abituriyenti mükafatlandıracağını elan edib.**

Belə ki, mobil operator tərəfindən tələbələrə daha rahat ünsiyyətüçün smartfonlar, "Nar" mobil nömrələri və yüksək məbləğdə balans təqdim edəcək. Məqsəd universitet həyatına yeni başlayan gənclərin nailiyyətlərinə töhfə vermək və ali təhsilə daha yüksək həvəslə yanaşmalarına dəstək olmaqdır.

Xatırladaq ki, "Nar"ın bu ənənəsi 2018-ci ildən qəbul imtahanlarında maksimal bal yığan tələbələrin mükafatlandırılması ilə başlayıb. Təhsil hər bir sahə üzrə dayanıqlı inkişafın və səmərəli fəaliyyətin başlıca zəmanəti olduğundan elm və maarifə dəstək "Nar"ın başlıca korporativ sosial məsuliyyət istiqamətidir."Nar"ın sosial layihələri barədə ətraflı məlumatı https://www.nar.az/projects/ səhifəsindən əldə edə bilərsiz.




## Müəllimlərin işə qəbul imtahanlarını DİM aparmalıdır

### Sualların sızdırılması hallarının təkrarlanmamasına kimsə zəmanət verə bilməz

**Müəllimlərin işə qəbul imtahanlarında qanunsuzluq olub.**

Azərbaycan Respublikası Təhsil İnstitutunun (ARTİ) apardığı araşdırmalara görə, müəlliflərdən Siracəddin Quluzadə sualların məxfiliyinin qorunması şərtlərini pozub. 14 iyul 2022-ci il tarixində keçirilən riyaziyyat fənni üzrə imtahanda istifadə edilmiş 3 sualın (S.Quluzadə tərəfindən MİQ sual bankına təqdim edilmiş) imtahandan əvvəl bəzi namizədlərə videoformatda izah olunması iddiası öz təsdiqini tapıb. S.Quluzadə ilə bağlı qanunvericilikdə nəzərdə tutulmuş müvafiq hüquqi addımlar atılacaq. Qeyd edək ki, hazırda ARTİ bu hadisənin imtahan nəticələrinə olan təsirləri barəsində elmi-statistik təhlil aparır. Yekun nəticələrə dair qərar barədə ictimaiyyətə ətraflı məlumat veriləcək.

**"Şərq"ə danışan təhsil eksperti Elçin Əfəndi sualların öncədən sızdırılmasının təəssüfləndirici hal olduğunu vurğulayıb: "Belə davam etməməlidir.** Təxminən 4-5 il əvvəl də söyləmişdim. İmtahanların keçirilməsi Dövlət İmtahan Mərkəzi (DİM) gerçəkləşdirməlidir. Bütün imtahanları DİM reallaşdırmalıdır. Növbəti MİQ imtahanlarında eyni situasiyanın yaşanmayacağını bilmirik. Sualları hazırlayan mütəxəssislər prosesdən uzaq tutulmalıdır. Vaxtilə DİM-in tətbiq etdiyi qayda var idi. Müəllimlər müvafiq yerdə saxlanılırdı, imtahanlardan sonra buraxılırdı. Həmin üsul olmalıdır. Eyni halın təkrarlanmayacağına kimsə zəmanət vermir".

**Aygün Tahir**

# Sosioloq təhsil ekspertinin təklifi ilə razılaşmır

## "Övladı ölən qadınların bağçada işə götürülməməsi çox qəddar bir yanaşma olardı"

**"Boşanmış, övladı vəfat etmiş şəxsləri bu vəzifəyə, ümumiyyətlə işə cəlb etmək olmaz. Uşaq bağçalarında bəzən aqressiv halların da şahidi oluruq. Onlar feyskontroldan keçirilməlidirlər. Uşaq bağçalarına müəllimləri yalnız bu prosesdən sonra cəlb etməliyik".**

Bu sözləri təhsil eksperti Kamran Əsədov deyib. Üstəlik, əlavə edib ki, "bağça rəhbərləri, orada çalışan təlim-tərbiyəçilərin mütləq şəkildə xarici görünüşü də yoxlanılmalı, xarici görünüşləri vahiməli olmamalıdır.

Ekspertin sözügedən açıqlaması cəmiyyətdə birmənalı qarşılanmayıb. Xüsusən də qadınlar belə bir təklifin reallaşmasını insan hüquqlarına zidd kimi dəyərləndirib. Ekspertlər də hesab edir ki, insanları işə götürərkən xarici görkəminə, boşanmış olmasına, övladını itirməsinə fikir verilməsi cəmiyyətdə çox böyük diskriminasiya yaradır.

**Sosioloq Lalə Mehralının "Şərq"ə açıqlamasına görə, Kamran müəllimin dediklərində müəyyən qədər həqiqət payı var. Sadəcə, təklif etdiyi məsələ çox radikal bir yanaşmadır. Bu, elə bir məsələdir ki, birmənalı rəy bildirmək olmur:** "Uşaq bağçalarına işə qəbul prosesinin mərkəzləşdirilmiş test üsulu və müsahibə yolu ilə keçirilməsi kifayət qədər əhəmiyyətli addım olar. Bilirsiniz, aqresiyya individualdır və baş vermə səbəbləri fərddən fərdə dəyişə bilir. Ailəsi olan o qədər qadınlar var ki, aqressiyasını evdəkilərə yox, məktəbdə şagirdlərin üzərinə boşaldır. Övladı ölən qadınların bağçada işə götürülməməsi isə çox qəddar bir yanaşma olardı. İnsanın başına hər şey gələ bilər. Övladını itirən ana başqalarının övladına ziyan verə bilər deyə düşünmək doğru yanaşma deyil. Əksinə, düşünürəm o qadın uşaqların əhatəsində olduqca dərdini unudub övladına verə bilmədiyi qayğını, sevgini onlara verə bilər. İstisna ola bilər, amma çox az faizlə. Buna görə, filan kateqoriyaya aid olan qadınlar bağçalara işə götürülməsin demək olmaz. Bağçalara işə qəbul zaman fərdi müsahibələr götürülməlidir ki, namizədlərin psixoloji vəziyyəti analiz edilsin. Ancaq bu yolla bağçalarda baş verən aqressiv davranışların, uşaq zorakılıqlarının qarşısını almaq olar".



*Psixoloq isə hesab edir ki, övladını itirmiş və yaxud boşanmış qadın daha güclü tərbiyə keyfiyyətlərinə malikdir*

**Psixoloq Gülnar Orucova isə təhsil eksperti ilə qətiyyən razılaşmadığını deyib. Onun sözlərinə görə, hər bir insanda empati hissi olur.** Övladını itirmiş insan daha çox övlad qədri bilir, nəinki universiteti yenicə bitirib gəlmiş gəncdə. Çünki yenicə məzun olmuş gəncdə övlad sevgisi olmur, və yaxud az olur: "Əksinə, övlad sevgisi olmayan təcrübəsiz gəncin işə qəbul olunması daha çox risk yaradır. O ki qaldı boşanmış qadın məsələsinə, onu deyə bilərəm ki, boşanmaq özü də bir mədəniyyətdir. Çünki qadın və ailənin digər üzvləri davamlı şiddət görür. Bu şiddət isə uşaqlarda bir çox hallarda ömürlük psixoloji travma yaradır. Bəzi qadınlar boşanmaqla ən azından uşaqlarını ömürlük travmadan xilas edir".

**Psixoloq hesab edir ki, övladını itirmiş və yaxud boşanmış qadın daha güclü tərbiyə keyfiyyətlərinə malikdir.**

"Çünki onun acı da olsa həyat təcrübəsi var. Atasız uşaq böyüdən qadın uşaq üçün sevgi qıtlığının nə demək olduğunu çox gözəl bilir. Ona görə də övladını itirmiş və yaxud dul qadının işə qəbul olunmaması çağırışı kökündən səhvdir".

**Şəymən**

**BİLDİRİŞ**

"AVTO-QARANT" Açıq Səhmdar Cəmiyyətinin səhmdarlarının nəzərinə

02.09.2022-ci il tarixində saat 11:00-da Bakı şəh., Xətai r-nu, Mingəçevir küçəsi 40 ünvanında "AVTO-QARANT" Açıq Səhmdar Cəmiyyətinin səhmdarlarının növbədən kənar ümumi yığıncağı keçiriləcəkdir

Gündəlikdə duran məsələlər

1. Səhmdar cəmiyyətin Müşahidə şuranın, idarə heyətinin və maliyyə-təftiş komisiyyasının üzvlərinin yenidən seçilməsi

"AVTO-QARANT" ASC-nin

Müşahidə Şurası sədri Bağırov Vilayət Qəşəm oğlu

# Cəza mexanizmləri işə düşməlidir

## İctimai nəqliyyatda xuliqanlıq hadisələrinin sayı artıb

**Bakının Sabunçu rayonunda avtobusda dava düşüb. Hadisə saat 23:00-da Zabrat qəsəbəsində qeydə alınıb. 118B marşrut xətti üzrə hərəkət edən sərnişin avtobusunun sürücüsü, 1977-ci il təvəllüdlü Qorçiyev Əziz Cəmil oğlu avtobusda olan sərnişinlə mübahisə edib. Mübahisə zamanı sürücü döyülərək, ağır bədən xəsarətləri alıb. O, 3 nömrəli xəstəxananın reanimasiya şöbəsinə yerləşdirilib.**

Mübahisənin səbəbi hələ ki məlum deyil. Faktı Sabunçu Rayon Polis İdarəsinin əməkdaşları araşdırırlar.

**Nəqliyyat üzrə ekspert İlqar Hüseynli "Şərq"ə açıqlamasında bildirib ki, həqiqətən də, sürücü ilə sərnişin arasında yaranan mübahisə halları geniş vüsət alıb:** "Təbii ki, sürücü öz vəzifə səlahiyyətlərini yerinə yetirir. Lakin o, hər dayanacaqda marşruta minən, düşən insanların kimliyini, hansı xarakterdə, psixologiyada olduğunu bilmir. Ciblərində 1 manat pulları varmı, yoxmu heç kim məlumatlı deyil. Aydındır ki, ictimai nəqliyyatdan daha çox kasıb təbəqə istifadə edir. Sürücü də dayanacaqda dayanıb, bütün sərnişinləri götürməlidir. Buna görə hansısa bir cəza və ya digər mexanizmlərin tətbiqindən söhbət gedə bilməz. Amma artıq avtobusda xuliqanlıq hadisəsi, insana xəsarət yetirmə hallarına gətirib çıxaran dava-dalaşlar baş verirsə, sözsüz ki, cəza mexanizmləri tətbiq edilməlidir. Şəxs ölkənin müvafiq qanunvericiliyinə uyğun olaraq, istər inzibati xəta, istərsə də cinayət məsuliyyətinə cəlb edilməlidir. Cəmiyyətdə insan haqqında bəzən cəzasızlıq hökm sürür, bəzi hallarda isə sərt tədbirlər görülür. Əslində sürücü analoji hadisə zamanı dərhal mühafizə zolağında dayanaraq, 102 qaynar xəttinə zəng edib, əraziyə polis çağırmalıdır. Nəqliyyat



vasitəsini idarə edən şəxs sərnişinlə mübahisə etdikdə qarşı tərəfin ona zərər yetirə biləcəyi ehtimalını göz önündə tutmalıdır. Xüsusi bir həll yolu yoxdur. Sürücülər bənzər problemlə rastlaşdıqda mütləq hüquq-mühafizə orqanlarına, 102 qaynar xəttinə məlumat verə bilərlər".

**Sücayət Mehti**

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 2016



# Azərbaycanda nadir heyvan növlərinin sayı artıb

## Aparılan vizual müşahidələr nəticəsində 1000-ə yaxın maral fərdinin məskunlaşdığı qeydə alınıb

**Zaqatala Dövlət Təbiət Qoruğunun ərazisində bir neçə gün əvvəl aparılan monitorinqlər zamanı regionun nadir növlərindən olan Qafqaz maralının (nəcib maral) sayında nəzərəçarpacaq artım müşahidə edilib və bu, "Qırmızı Kitab" a düşmüş növ üçün son illərin ən uğurlu nəticəsidir. Bunu Bioloji Müxtəlifliyin Qorunması Xidmətinin rəsmisi Arzu Babayeva bildirib.**

"Azərbaycan Respublikasının "Qırmızı Kitab"ına daxil olan Qafqaz maralının ən geniş arealı sayılan Zaqatala Dövlət Təbiət Qoruğunda bu mövsüm üzrə aparılan vizual müşahidələr nəticəsində 1000-ə yaxın maral fərdinin məskunlaşdığı qeydə alınıb".

A.Babayeva qeyd edib ki, monitorinqlər zamanı Qafqaz maralı ilə birgə digər nadir növlərin - Dağıstan turu, Qonur ayı və köpgərin də populyasiyalarının dayanıqlılığı, fərdlərin sayında artım dinamikası müşahidə edilib ki, bu da qoruq ərazisində mühafizə işinin yüksək səviyyədə yerinə yetirilməsinin nəticəsidir.

# Tarixi 3300 ildir

## Türkiyənin Kütahya vilayətində qədim möhür və xəncər tapılıb



**Türkiyənin Kütahya vilayətində yerləşən 8 min illik tarixi olan Tavşanlıda yeni dövr qazıntılar zamanı tarixi 3300 illik olan möhür və xəncər aşkar edilib.**

Azərtac Anadolu Agentliyinə istinadla xəbər verir ki, sözügedən möhür və xəncər Bilecik Şeyh Edebali Universitetinin alimi Erkan Fidanın rəhbərliyi ilə aparılan qazıntılar zamanı tapılıb.

Bu tarixi əsərlər Türkiyənin Mədəniyyət və Turizm Nazirliyinin Mədəni İrs və Muzeylər Baş İdarəsinin Qazıntılar və araşdırmalar şöbəsinin sosial media hesabında paylaşılıb.

Aparılan digər qazıntılar zamanı bir çox yeni arxeoloji tapıntının aşkarlanması planlaşdırılır.



# Pilot və 2 turistin faciəsi

## Onların cəsədlərini ayılar parçalayıb



**Rusiyanın Ukraynaya silahlı təcavüzü səyahət marşrutunda dəyişiklik etmək məcburiyyətində qalan ruslara faciələr yaşadır.**

Qərbin Rusiyaya iqtisadi sanksiyaları səbəbindən ruslar Avropa ölkələrinə səyahətlərdən vaz keçərək ölkədaxili turizmə və səyahətlərə üstünlük verirlər. "Şərq" "Milliyet.com.tr"yə istinadən bildirir ki, iş qadını Zoya Kayqorodova ilə "Tele2" mobil telefon şirkətinin icraçı direktoru, 39 yaşlı Sergey Kolesnyak da təbii gözəllikləri, vulkan və qreyzerləri ilə məşhur Kamçatka yarımadasına səyahət etmək qərarına gəlib. Onlar səyahət üçün şəxsi helikopteri olan, biatlon üzrə gənclər arasında 5 qat dünya çempionu olmuş sabiq idmançı İqor Malinovskiyə müraciət ediblər. İ.Malinovski yarışlarda aldığı zədələrdən sonra idmanla vidalaşaraq uşaqlıq arzusu olan pilotluğa meyl edib. Helikopter pilotu kimi turistləri uzaq bölgələrə daşıyırmış. Zoya və Sergeyin Kamçatka səyahətində də İ.Malinovski rəhbərliyi üzərinə götürüb. Hava şərtləri uyğun olmasa da helikopter havalanıb. Bir müddət sonra isə onlarla əlaqə kəsilib. Xilasedicilərə xəbər verilib və bölgədə axtarış başladılıb. Yanmış "Robinson" helikopterinin qalıqları "Uzon" vulkanının yaxınlığında tapılıb. 3 nəfərin isə sağ olub-olmadığı uzun müddət bilinməyib. Axtarışlar davam edib. Nəhayət, vulkandan 13 kilometr aralıda 3 nəfərin cəsədlərinin qalıqları aşkarlanıb. Cəsədləri görən xilasedicilər şoka düşüb. Məlum olub ki, cəsədləri bölgədəki ayılar parçalayıb. Pilot və turistlərin cəsədlərinin qalıqları toplanaraq tibbi ekspertizaya göndərilib.

**Məlahət**



# Qırmızı rəngə üstünlük verib

## Kraliça növbəti stil nümunəsini göstərib

**Bu gün, iyulun 19-da Kraliça Letisiya Madrid Sarayında rəsmi tədbirdə iştirak edib.**

**Publika.az xəbər verir ki, kraliça aristokrat çıxışı üçün qırmızı rəngə üstünlük verib. Yandan düymə ilə bağlanan xalat paltar kraliçanın siluetini əla vurğulayıb. Letisiya ciddi və möhtəşəm görünüb. O, görünüşünü "Felipe Varela" markasından eyni rəngli dikdaban və almaz sırğalarla tamamlayıb.**

**Xatırladaq ki, 49 yaşlı kraliça geyimlərini təkrar-təkrar istifadə etməyi özünə ayıb saymır. Qırmızı libasını isə o, sonuncu dəfə 2019-cu ilin iyununda geyinib. Paltar 280 avroya satılıb.**

# Toyda dava

## 2 nəfər bıçaqlanıb



**Türkiyənin Kayseri şəhərinin Melikqazi rayonunda toyda bəylə gəlinin ailələri arasında mübahisə bıçaqlı davaya çevrilib. Hadisə zamanı yaralanan iki nəfər xəstəxanaya çatdırılıb.**

**Məlumatdan sonra hadisə yerinə polis və tibb qrupları göndərilib. Yaralıları təcili yardımlarla xəstəxanaya aparıblar. Polis tərəfləri sakitləşdirməyə nail olub.**

# Qadın itini döydü

## Hadisəyə ətrafdakı vətəndaşlar sərt reaksiya verib



**İstanbulun Küçükçekmece rayonunda naməlum qadın gəzintiyə çıxardığı itə şiddət göstərib.**

**İtinə qarşı zorakılıq edən qadına ətrafdakı vətəndaşlar reaksiya verib. Balkona çıxan bir qadın itini vuran şəxsə "Necə vurursan, baxa bilmirsənsə, əllərin qırılsın" deyə qışqırıb. Vətəndaşların təpkisindən sonra qadın itini dartaraq ərazidən uzaqlaşıb.**

**Turan**



# Son vaxtlar allergik xəstələrin sayı artıb

## Buna küləkli havada tozun miqdarının artması da təsir edir

**Bakıda və Abşeron yarımadasında son günlər şimal-qərb küləyinin arabir güclənməsi nəticəsində torpağın üst quru səthində formalaşan toz kütlələrinin ətrafa yayılması müşahidə edilir.**

Hidrometeoroloji Proqnozlar Bürosunun direktoru Gülşad Məmmədovanın sözlərinə görə, havada müşahidə olunan toz dumanı lokal xarakterlidir: "İyulun 19-u səhər saatlarında avtomatik stansiyalardan əldə olunmuş məlumatlara əsasən havada dispers toz hissəcikləri Bakı şəhərinin Xətai rayonunda normadan 1,4, Nizami rayonunda 1,5, Səbail rayonunda isə 1,2 dəfə yüksək olub. Güclü şimal-qərb küləyindən və meteoroloji şəraitdən asılı olaraq tozlu havanın həftənin sonuna kimi davam edəcəyi proqnozlaşdırılır".

Qeyd edək ki, ölkəmizdə hökm sürən tozlu və küləkli hava şəraitinin bir çox insanın səhhətinə mənfi təsiri qaçılmazdır. Araşdırmalara görə, bu cür havalar insanların əsəb sisteminə təsir göstərir və insanların psixoloji durumunu pozur. Ekoloqlar son vaxtlar Bakıda havanın tərkibinin dəyişdiyi barədə tez-tez danışırlar. Söhbət şəhər havasında çirklənmənin səviyyəsinin artmasından gedir. Bir yandan istiləşmə nəticəsində havanın tərkibində zərərli qazların artması, o biri bir yandan da küləyin və tikintinin yaratdığı toz-duman, məişət tullantılarının yandırılması və avtomobillərin işləməsi nəticəsində əmələ gələn tüstü, kanalizasiya sularının axıdıldığı gölməçələrin üfunət qoxusu nəfəsalmanı çətinləşdirir. Havanın çirklənməsinə şərait yaradan faktlardan biri də yaşıllıqların kütləvi məhvidir. Bir sözlə, Bakıda atmosferin çirklənməsi artıq insanların canına hopub.

**Küləkli və tozlu hava şəraitinin insan orqanizminə təsirindən danışan terapevt Vəfa Əhmədovanın sözlərinə görə, küləkli havada tozun miqdarı çoxalır, bu da ilk növbədə göz və tənəffüs yollarında olan problemlərin daha ciddiləşməsinə səbəb olur:** "Toz əsasən obstruktiv bronxit xəstəliyini yaradır ki, bunun da yaranması üçün tozu uzun müddət qəbul etmək lazımdır. Külək və küləyin qaldırdığı toz hər zaman ziyanlıdır. Çünki toz olan yerdə insan nəfəs aldığı zaman təbii ki, ağciyərlərdə müxtəlif xəstəliklər yarana bilər. Amma o xəstəliklərin yaranmasında insan orqanizmindən da çox şey asılıdır. Heç bir xəstəliyi olmayan insanlar üçün anlıq olan toz çox da böyük rol oynamır. Əsasən xroniki xəstəliyi olan insanlarda və ya orqanizmi zəif olanlarda, yaxud həmin xəstəliyə meyilli olanlarda yaranır. Toz əsasən allergik xəstəliyi olan insanlara təsir edir. Yəni xəstəliyi sürətləndirə bilir. Obstruktiv bronxit xəstəliyi var ki, onun yaranması üçün də tozu uzun müddət qəbul etmək lazımdır. Sağlam adamlarda hər hansı bir xəstəliyi yaratma ehtimalı demək olar ki, yoxdur. Amma ağciyərində genetik kodda zəiflik, yuxarı tənəffüs yolunda müəyyən problem olan insanlarda xəstəlik yarada və mövcud xəstəliyi sürətləndirə bilər". Həkimin fikrincə, havada toz dumanının artması ən çox tənəffüs sistemi xəstəlikləri olan, nəfəsalma problemləri yaşayan, allergik xəstəliklərdən əziyyət çəkən insanlara təsir edir: "Axır vaxtlar allergik xəstələrin sayı artıb. Ola bilər ki, havada toz miqdarının artmasının da buna təsiri var. Havada tozun miqdarının artması qeyd etdiyim problemləri olmayan adamlara da təsirsiz ötüşməz. Çünki ciyərlərimiz təmiz oksigeni alır və karbon qazını buraxır. Aldığımız havanın tərkibində oksigenin miqdarı az, tozun miqdarı çox olarsa, əlbəttə ki, orqanizmə təsir edəcək. Sabah infeksion xəstəlik, soyuqdəymə, ağciyər xəstəliyi keçirsək, ciyərimiz əvvəlki kimi sağalmaya, müalicə yüz faiz sağalma ilə bitməyə bilər. Çünki insanın sağalmasında ətraf mühitin, ekologiyanın da təsiri var. Tozlu havada insanlar müəyyən qədər qorunmalıdırlar. Çalışmalıdırlar ki, həmişə ağızla yox, burunla nəfəs alsınlar. Çünki ağızla nəfəs aldıqda hava baryersiz olaraq ağ ciyərlərə gedir. Tozlu havalarda qoruyucu maskalardan istifadə məqsədəuyğundur".

**Şəymən**

# Alimlərlərdən xəbərdarlıq...

## Uzun müddət zəif işıqda vaxt keçirmək beynə zərərlidir



**Uzun müddət zəif işıqda vaxt keçirmək beynin quruluşunu dəyişdirə bilər, öyrənmə və xatırlama qabiliyyətinə də zərər verə bilər.**

Miçiqan Universitetinin neyro-alimləri apardıqları araşdırma ilə belə bir nəticəyə gəliblər. Alimlər insanlar kimi gecə-gündüz oyaq olub gecə yatan Nil çöl siçanlarını iki qrupa ayırıb apardıqları araşdırmada, siçanların bir hissəsini dörd həftə ərzində zəif, digər hissəsini isə gur işığa məruz qoyublar.

Zəif işığa məruz qalan siçanların beyinlərində, öyrənmə və yaddaşla əlaqəli hipokampus hissəsində 30% ətrafında güc itkisi müşahidə edilib. Heyvanları əvvəlcədən öyrədilmiş məkanla bağlı vəzifələrini yerinə yetirməkdə çətinlik çəkdikləri müşahidə olunub.

Alimlər digər tərəfdən, gur işığa məruz qalan siçanların bu vəzifədə diqqətlərinin inkişaf etdiyini müşahidə ediblər.

Uzun müddət qaranlıq işıqda saxlanılan siçanlar daha sonra bir ay ərzində gur işıqlı mühitdə saxlanılıb və bu müddətin sonunda siçanların beyin qabiliyyətlərinin tamamilə sağaldığı müşahidə olunub. (Milli.Az)

Araşdırmanı aparan alimlərdən Joel Solar belə bir açıqlama ilə çıxış edib: "Zəif işıq hipokampusda neyronların və sağlam əlaqələrin davamlılığına kömək edən bir peptidin azalmasına səbəb olur".

# Şampan şüşəsi 2,5 milyon dollara satıldı




**Unikal 1,5 litrlik 2017-ci ilin Ch?teau Avenue Foch şampan şərabı 2,5 milyon dollara satılıb.**

Milli.Az bildirir ki, bu barədə CNN məlumat yayıb.

Butulkanın yaranma ideyası britaniyalı sahibkar və özünü şampan bilicisi adlandıran Şammi Şinhudan gəlir. O, ideyasını NFT rəssamı Mig ilə əməkdaşlıqda həyata keçirib. Şinhunun sözlərinə görə, əməkdaşlığın məqsədi NFT haqqında məlumatlılığı artırmaqdır.

Şüşə, italyan kriptovalyuta investorları, moda və texnologiyanın pərəstişkarları Covanni və Piero Buono qardaşları tərəfindən özəl satışdan alınıb. "Mən onu içməyi planlaşdırmıram. Düşünürəm ki, butulka yaxşı bir sərmayə olacaq", - deyə Covanni bildirib.

Şinh butulkanın gələcəkdə daha yüksək qiymətə satılacağını fikirləşir.

NFT non-fungible token deməkdir, yəni blokçeyn texnologiyasından istifadə edərək yaradılmış token. Yaradıcıların düşündüyü kimi, NFT-lər insanın İnternetdə rəqəmsal obyektə sahib olmaq hüququnu təmin edən qiymətli kağızlar kimidir, istər fotoşəkil, şəkil, audio və ya digər fayl olsun.